**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN SSR-DƏ MİLLİ MƏSƏLƏ VƏ KADR SİYASƏTİ (XX əsrin 20-30-cu illəri)

İxtisas: 5503.02-Vətən tarixi
Elm sahəsi: Tarix

İddiaçı: **İlqar Vahid oğlu Niftəliyev**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın sovet dövrü tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

tarix elmləri doktoru, professor
**Vəkil Səfiyar oğlu Həsənov**

tarix elmləri doktoru, dosent
**Nazim Rəhbər oğlu Məmmədov**

tarix elmləri doktoru, dosent
**Mehman Sirac oğlu Süleymanov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: ____________ tarix elmləri doktoru, dosent
**İlhamə Gülbala qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ tarix elmləri doktoru, professor
**Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bu gün Vətən tarixşünaslığında Azərbaycanın sovet dövrü tarixinin ən mühüm elmi problemlərinin tədqiqinə ehtiyac yaranmışdır. Belə problemlərdən biri də XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-in partiya-dövlət hakimiyyətinin müxtəlif pillələrində, iqtisadiyyatında, elm və təhsil sahəsində kadrların hazırlanması, irəli sürülməsi və yerləşdirilməsinə dair sovet milli siyasətidir. Rəhbər vəzifələrə yerli millətlərdən olan kadrların təyin edilməsi ucqarlarda milli məsələnin həllinin ən mühüm istiqamətlərindən birini təşkil etmiş, partiya sənədlərində "milliləşdirmə", bir qədər sonra isə "yerliləşdirmə" adlandırılmışdı. Tədqiq olunan dövrdə Azərbaycanda bolşevik rejiminin möhkəmlənməsi şəraitində müxtəlif sahələrdə sovet kadr siyasətinin əsas meyarlarının və həyata keçirilmə üsullarının təşəkkülü prosesi gedirdi. XX əsrin 20-30-cu illərində kadr siyasətində müəyyən edilmiş paradiqmalar, sonrakı dövrlərdə onlara edilən cüzi dəyişikliklər nəzərə alınmasa, Azərbaycan rəhbərliyi üçün bu sahədə əsas fəaliyyət proqramına çevrilmişdir.

Sovet kadr siyasətini öyrənmədən sovet rejiminin nə olduğunu, onun təşəkkülündə və möhkəmlənməsində rəhbər elitanın oynadığı rolu dərindən dərk etmək mümkün deyil. SSRİ-də kadr siyasəti partiya-dövlət hakimiyyətinin bütün pillələrində yalnız Kommunist Partiyası, partiya daxilində isə geniş hakimiyyətə malik olan bir qrup insan tərəfindən həyata keçirilirdi. Bu gün tarixi ədəbiyyatda onları hakim elita, nomenklatura adlandırırlar. Həqiqət isə ondan ibarətdir ki, 70 il ərzində bu ali rəhbər elitanın formalaşması prosesi, onun keyfiyyət parametrləri Azərbaycan tarixşünaslığında tədqiqat obyekti olmamışdır. Çünki Azərbaycanda sovet rejiminin bir çox sirləri üzərində qadağaların götürülməsi, adları sovet tarixşünaslığı tərəfindən əbədiləşdirilmiş bir çox rəhbərlərin əsl simalarını çılpağlığı ilə ortaya qoya bilərdi.

Kadr siyasəti ilə bağlı tarixi ədəbiyyatın təhlili göstərir ki, sovet Azərbaycan tarixşünaslığında bu mövzuya dair xeyli mənbə toplanmış və məzmun baxımından o dövrdə tarix elmində mövcud olmuş konseptual çərçivələrdə ayrı-ayrı monoqrafiyalar yazılmışdır. Bu isə

həmin tədqiqatların keyfiyyətinin azalmasına, onların bir çoxlarının məzmun parametrlərinə görə bir-birinin təkrarlanmasına gətirib çıxartmışdı. Bu tədqiqatlar əsasən Azərbaycanda sənayenin inkişafı və fəhlə sinfinin formalaşması tarixinə, kollektivləşmə illərində Azərbaycan kəndində sosial-iqtisadi proseslərə, ictimai təşkilatların tarixinə, mədəni quruculuq və təhsilin inkişafı məsələlərinə həsr olunmuşdur. Eyni zamanda, həmin əsərlərdə Azərbaycan SSR-in ali partiya-dövlət hakimiyyəti strukturlarında həyata keçirilən kadr siyasəti ilə bağlı informasiya qıtlığı mövcud idi.

Nəticədə, tarixi proseslər "partiya və xalq kütlələri"nin simasız fəaliyyəti kimi təqdim olunurdu. Bu isə, 1920-30-cu illərdə Azərbaycanı kimlər idarə edirdi sualına cavab verməyi çətinləşdirirdi. Çünki partiya rəhbərlərinin bir qisminin adları üzərində Stalinin şəxsiyyətinə pərəstiş dövründə, digərlərinin isə 1956-cı ildə keçirilmiş XX partiya qurultayından sonra qadağalar qoyulmuşdu. Hər iki halda bu şəxslər siyasi repressiyaların qurbanları olmuşdular. Buna görə də dissertasiyada biz keçmiş mücərrəd sxemlərdən uzaqlaşaraq, bütün zəif və güclü tərəfləri, prioritetləri və maraqları olan canlı insanlardan ibarət Azərbaycanın sovet siyasi elitasının həqiqi mənzərəsini yaratmağa calışmışıq.

Problemin tədqiqi çərçivəsində sovet kadr siyasətinə dair sovet arxiv sənədlərinin prinsipial olaraq yeni yanaşmalar əsasında qiymətləndirilməsi tələb olunur. Xarici tarixşünaslığın bu problemin həm qoyuluşuna, həm də işlənməsinə verdiyi konkret töhfələrə diqqət yetirmək zərurədir. Çünki sovet kadr siyasəti ilə bağlı bir sıra məsələlərin öyrənilməsində və onların dərk edilməsində Qərb tədqiqatçıları Sovet tədqiqatçılarından xeyli irəli getmişdilər.

Problemin aktuallığı həm də sovet kadr siyasətinin dövlət quruculuğunun müxtəlif mərhələlərində əsas xüsusiyyətlərini üzə çıxarmaqdan ibarətdir ki, bu da SSRİ-də baş verən sosial-iqtisadi dəyişikliklərin miqyası ilə sıx bağlı idi. Kadr siyasətinin inkişafı prosesi bu dəyişikliklərlə parallel gedirdi. Bu təcrübənin öyrənilməsi müasir şəraitdə müstəqil Azərbaycan dövlətinin quruculuğunda sovet kadr siyasətində yol verilən səhvlərdən və deformasiyalardan qaçmağa imkan verəcəkdir. Bu gün ölkədə hakimiyyət vertikalının

möhkəmləndirilməsi, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması və ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı həll edilən məsələlər baxımından sovet kadr siyasətinin bir çox aspektləri öz aktuallığını itirməmişdir.

Azərbaycanda kadr siyasəti probleminin tarixşünaslığının əsası 1920-ci illərin əvvəllərində qoyulmuşdur. Bu zaman partiya mətbuatında partiya və dövlət rəsmilərinin Azərbaycanda milli siyasətin ən vacib məsələləri ilə bağlı tənqidi məqalələri dərc olunurdu. Həmin məqalələrin bir çoxu partiyada baş verən proseslərə, türk fəhlə və kəndlilərinin dövlət və təsərrüfat qurumlarına təyin edilməsi, dövlət quruculuğunda türk dilinin yeri və rolu məsələlərinə həsr olunmuşdur.[1]

Azərbaycanın bolşevik liderlərinin əsərləri arasında Nəriman Nərimanovun əsərləri xüsusi yer tutur. N.Nərimanovun əsərləri öz dərin məzmunu ilə yanaşı, həm də partiya-dövlət münasibətləri sahəsində bolşevik hakimiyyətinin təcrübəsinə nəzəri baxışı ilə seçilir.[2] Digər görkəmli Zaqafqaziya bolşeviklərinin əsərləri də bu qrupa aiddir. Həmin əsərlər 1920-1930-cu illərdə kommunistlərin dünyagörüşünü və psixologiyasını öyrənməyə imkan verir. Ümumiyyətlə, bu müəlliflərə xas olan motivasiya sovet hökumətinin, yeni sosial və iqtisadi sistemin Qafqaz xalqlarının tərəqqisi üçün "imperializmin nökərlərindən" daha çox iş gördüyünü sübut etmək idi.[3] Bolşevik partiyasının üzvü olmuş Ə.Əhmədovun kitabında 1920-

---

[1] Нариманов, Н. Ответ некоторым нашим товарищам // Бакинский рабочий. - 1922, 15 июня; Джабиев, Г. К очередной постановке национального вопроса в Азербайджане// Бакинский рабочий. -1924, 25 апреля; Джабиев, Г. Большевистское регулирование количественного состава нашей партии (К XIV съезду партии) // Бакинский рабочий. - 1925, 17 декабря; Джабиев, Г. За беспощадную борьбу с тюркским национализмом// Бакинский рабочий. - 1929, 8 августа; Ханбудагов, Э. К национальному вопросу// Бакинский рабочий. - 1924, 27 апреля.

[2] Нариманов, Н. Избранные произведения: [в 2-х томах]. Т. 2. Баку: 1989; Нариманов, Н К истории нашей революции на окраинах. Баку: 1990.

[3] Багиров, М.Дж. Отчет о работе Бакинского комитета АКП (б). Баку: 1934; Багиров, М.Дж. Отчет ЦК КП (б) Азербайджана. Баку:1937; Багиров, М.Дж. Из истории большевистской организации Баку и Азербайджана. Москва: 1949; Берия, Л.П. К вопросу об истории большевистских организаций Закавказья. Москва: 1936; Орджоникидзе, Г.К. Избранные статьи и речи. 1918-1937.

ci illərdə hakimiyyətdaxili mübarizə, partiya daxilində müxtəlif təmayüllər, tanınmış partiya xadimlərinin siyasi baxışları araşdırılır.[4]

Bolşeviklərin milli dövlət quruluculuğu və kadr siyasəti məsələlərini araşdırarkən, Kommunist Partiyasının və sovet dövlətinin liderlərinin əsərlərindən istifadə xüsusi əhəmiyyət kəsb edir. Ənənəvi olaraq V.İ. Leninin və İ.V. Stalinin milli məsələ və kadr siyasətinə dair fikirləri[5] sovet tarixçilərinin diqqət mərkəzində olmuşdu.

Azərbaycanda araşdırılan problemin elmi tarixşünaslığı müharibədən sonra, 1950-ci illərdən başlayaraq formalaşmışdır. Bu əsərlər əsasən Azərbaycanda sənayenin inkişafına və fəhlə sinifinin formalaşmasına, Azərbaycan kəndində kollektivləşmədən əvvəl və sonrakı dövrdə sosial-iqtisadi proseslərə, ictimai təşkilatların tarixinə, mədəni quruculuq və təhsilin inkişafı məsələlərinə həsr olunmuşdur. Həmin əsərlərin elmi əhəmiyyəti, ilk növbədə, onların arxiv sənədlərindən və dövrü nəşrlərdən olan faktiki materiallarla zəngin olmasıdır. Kadrların partiya üzvlüyü, onların təhsil səviyyəsi və sosial mənşəyi məsələləri də bu tədqiqatların diqqət mərkəzində idi. Kadrların milliləşdirilməsi və proletarlaşdırılması siyasəti ilə bağlı partiyanın əsas proqram qərarlarını sadalayan həmin müəlliflər bunların təcrübədə necə həyata keçirildiyini konkret rəqəmlərlə sübut etməyə çalışırdılar. Eyni zamanda, müəlliflərin mütləq əksəriyyəti yalnız müsbət hadisələri qabardır, əskiklikləri isə ört-basdır etməyə çalışırdılar. Araşdırmaların əksəriyyətində tarixi proseslər “partiyanın

---

Москва: 1945; Мусабеков, Г. Избранные статьи и речи: [в 2-х томах]. Т. 1. (1920-1927). Баку: 1960; Мусабеков, Г. Избранные статьи и речи: [в 2-х томах]. Т. 2. (1928-1937). Баку: 1962; Axundov, R.Ə. Seçilmiş əsərləri. Bakı: 1977.

[4] Ахмедов, А. Национальное движение, партии и общественные деятели Азербайджана в 1918-1925 годах глазами очевидца. Баку: 2006.

[5] Сталин, И.В. Сочинения: [в 18 томах]. Т.5. Москва: 1947; Сталин, И.В. Сочинения: [в 18 томах]. Т.6. Москва: 1947; Сталин, И.В. Сочинения: [в 18 томах]. Т.11. Москва: 1949; Сталин, И.В. Сочинения: [в 18 томах]. Т.14. Москва: 2007; Сталин, И.В. Сочинения. [в 18 томах]. Т.18. Москва: 2006; Ленин, В.И. Полное собрание сочинений: [в 55 томах]. Т. 36. Москва: 1974; Ленин, В.И. Полное собрание сочинений: [в 55 томах]. Т.45. Москва: 1970; Ленин, В.И. Полное собрание сочинений: [в 55 томах]. Т.53 Москва: 1970; Ленин, В.И. Полное собрание сочинений: [в 55 томах]. Т.54. Москва: 1975.

və kütlələrin" simasız fəaliyyəti kimi təsvir olunurdu. Əsərlərdə xalq təsərrüfatının müxtəlif sahələrində, təhsil sistemində uğurlar qeyd edilir, lakin bu uğurların Azərbaycan SSR-nin hansı partiya və dövlət başçılarının rəhbərliyi altında əldə edilməsi göstərilmirdi. Çox nadir hallarda partiya liderlərinin çıxışlarından sitatlara rast gəlmək olardı. Görünür, həmin dövrün tarixşünaslığında nəinki İ.Stalinin, eyni zamanda digər partiya xadimlərinin şəxsiyyətinə pərəstişlə mübarizə kampaniyası dərin iz buraxmışdır.[6]

Bəzi əsərlər[7] istisna olmaqla, Azərbaycan sovet tarixşünaslığında 1920-1930-cu illərdə Azərbaycan SSR-də partiya-dövlət hakimiyyət

---

[6] Əliyev, X., Əlimirzəyev, X. Azərbaycan kənd təsərrüfatının kollektivləşdirilməsi tarixindən (1930-1934). Bakı: 1957; Əliyev, X. Azərbaycan Kommunist Partiyasının fəhlə-kəndli ittifaqının möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən. Bakı: 1961; Qurbanov, Ə.Q. Azərbaycan Kommunist Partiyasının kənd təsərrüfatının ellikə kollektivləşdirilməsi dövründə kənddə sovetlərin möhkəmləndirilməsi uğrunda mübarizəsi. Bakı: 1961; Məmmədov, E.İ. Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində Azərbaycan kəndində sinfi mübarizə (1927-1929). Bakı: 1961; Məmmədov, E.İ. Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində Azərbaycan kəndində sinfi mübarizə (1930-1937). Bakı: 1967; Əlimirzəyev, X. Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı: 1963; Алиева, С. М. Деятельность партийной организации Азербайджана по подготовке женских кадров в период строительства социализма (1920-1936 гг.): / автореферат диссертации на соискание ученой степени кандидата исторических наук/ - Баку, - 1965; Пашаев, Н.А. Очерки истории культурного строительства Советского Азербайджана. Баку: 1965; Şıxlinski, Z. B. Azərbaycan kəndində sovet quruculuğu (1933-1937). Bakı: 1965; Şıxlinski, Z. B. Azərbaycan kəndində sovet quruculuğu (1926-1932). Bakı: 1975; Рзаев, А.К. Очерки истории высшего педагогического образования в Азербайджане. Баку: 1966; Мамедов, Н.М. Из истории развития животноводства в Советском Азербайджане (1920-1937): / автореферат диссертации на соискание ученой степени кандидата исторических наук/ - Баку: 1967; Очерки истории рабочего класса Азербайджанской ССР. Т. 1 (1917-1940). Баку: 1974; Мамедов, Н.З. Роль сельских советов в укреплении колхозного строя в Азербайджанской ССР (1933-июнь 1941 гг.): /автореферат диссертации на соискание ученой степени кандидата исторических наук/ - Баку: 1976; Мамедов, А.А. Рабочий класс Азербайджанской ССР (1926-1941 гг.): /автореферат диссертации на соискание ученой степени доктора исторических наук/- Баку: 1980.

[7] Искендеров, М. С. Из истории борьбы Коммунистической партии Азербайджана за победу Советской власти. Баку: 1958; Гандилов, С.Т. Борьба

orqanlarında kadr siyasəti problemi ilə bağlı tədqiqatlar yox dərəcəsindədir. Ümumiyyətlə, bütün əsərlərdə partiyadaxili həyat son dərəcədə zəif göstərilmişdir. Partiyada milli məsələyə dair hər hansı müzakirələr, bunun əsasında ümumi xəttə qarşı fikirlər haqqında məlumatları yalnız partiya plenumlarında və qurultaylarında qəbul edilmiş qərarlardan və qətnamələrdən, partiya xadimlərinin əsərlərindən əldə etmək olardı. Tarixşünaslıqda mövcud olan məhdudiyyətlər və qadağalar şəraitində partiya-təsərrüfat nomenklaturasının formalaşması ilə bağlı məsələlər bu əsərlərdə öz əksini tapmamışdır. Eyni zamanda, həmin əsərlərdə sovet kadr siyasətinin prinsiplərini təhlil etmək üçün xeyli faktiki material vardı.

XX qurultayın (1956) qərarlarından sonra Sovet İttifaqında siyasi iqlimin mülayimləşməsi şəraitində, Stalin repressiyalarının qurbanı olmuş Azərbaycan Kommunist partiyasının tanınmış xadimlərinə həsr olunmuş bioqrafik əsərlər nəşr olundu. Bu əsərlər daha çox təsviri xarakter daşıyır, zəngin mənbə bazasına və elmi təhlilə malik deyildilər. Adətən bu cür tədqiqatlar Azərbaycanda sovet

---

КПСС за сохранение и укрепление единства своих рядов (1926-1929 гг.): (По материалам Азербайджанской партийной организации): /автореферат диссертации на соискание ученой степени кандидата исторических наук/ - Баку: 1958; Гандилов, С.Т. Идейное и организационное укрепление коммунистической партии Азербайджана в годы социалистического строительства (1920-1932 гг.):/ автореферат диссертации на соискание ученой степени доктора исторических наук/- Баку: 1967; Qəndilov, S.T. Azərbaycanda partiya quruculugu məsələləri. Bakı: 1971; Ахмедов, Ф.Д. Борьба Коммунистической партии Азербайджана за регулирование состава своих рядов (1926-1929 гг.): /автореферат диссертации на соискание ученой степени кандидата исторических наук/ - Баку: 1964; Аббасов, М.А. Борьба Коммунистической партии Азербайджана за подготовку сельскохозяйственных кадров (1928-1937 г.г.): (По материалам АзССР): /автореферат диссертации на соискание ученой степени кандидата исторических наук/ - Баку: 1965; Гулиев, Дж. Б. Борьба Коммунистической партии за осуществление ленинской национальной политики в Азербайджане. Баку: 1970; Гулиев, Дж.Б. Под знаменем ленинской национальной политики. Баку: 1972; Гейдаров, И.И. Азербайджанский Совет Народных комиссаров Азербайджанской ССР (1921-1925): /автореферат на соискание ученой степени кандидата исторических наук/- Баку: 1975.

hakimiyyətinin qurulmasına və ya həmin bolşevik xadimlərinin yubileylərinə həsr olunurdu. Bu məqam həmin əsərlərin məzmununa güclü təsir göstərirdi, müəllifləri öz qəhrəmanlarını yalnız parlaq rənglərdə göstərməyə və onların siyasi karyerasının ziddiyyətli məqamlarını gizlətməyə məcbur edirdi. [8]

1980-ci illərin ikinci yarısından başlayaraq SSRİ-də yenidənqurma dalğası və İ.Stalinin şəxsiyyətinə qarşı yeni kampaniya ilə əlaqədar M.C. Bağırovun respublikaya rəhbərlik etdiyi dövrə həsr olunmuş (hələ ki dövrü mətbuat və partiya jurnalları səviyyəsində) tədqiqatlar işıq üzü gördü. Bu cür araşdırmalar yenə də Stalin rejiminin repressiyalarının qurbanı olmuş Azərbaycanın tanınmış kommunist xadimlərinin həyatına həsr olunmuşdu. Lakin indi "mülayimləşmə" dövrünün tarixşünaslğından fərqli olaraq, müəlliflər partiya daxilində mübarizə məsələlərini daha cəsarətlə işıqlandırmağa, 1920-1930-cu illərdə sovet cəmiyyətində baş vermiş ziddiyətli prosesləri kompleks şəkildə araşdırmağa çalışırdılar, M.C.Bağırovun siyasi fəaliyyətinin yeni, əvvəllər məlum olmayan təfərrüatları, onun Azərbaycanın digər tanınmış partiya xadimləri ilə münasibətlərinə və bu münasibətlərin müəyyən dərəcədə həmin şəxslərin sonradan həbsinə və fiziki məhvinə gətirib çıxaran səbəblərə dair maraqlı faktlar aşkara çıxarmışdılar. [9] Lakin bu əsərlərin yenə də əsas nöqsanı müəlliflərin öz qəhrəmanlarını ideallaşdırmaq, onların siyasi portretlərinin qaranlıq tərəflərini retuş etmək cəhdləri idi. Bu əsərlərin böyük hissəsi dərin mənbəşünaslıq bazasına malik deyildi, onların

---

[8] Активные борцы за Советскую власть в Азербайджане. Баку: 1957; Katibli, M.M. Qəzənfər Musabəyov. Bakı:1958; Hüseynov, A.Ə. Levon Mirzoyan. Bakı: 1960; Каренин, А.А. Султан Меджид Эфендиев. Баку: 1963; İskəndərov, S.M. Kirov Azərbaycanda. Bakı: 1965; Багиров, М.М. Музаффар Нариманов. Баку:1965; Аббакумова, В.Ф. Виктор Нанейшвили. Баку: 1966; Катибли, М.М. Чингиз Ильдрым. Баку: 1967; Qafarov, R.A. Muxtar Hacıyev. Bakı:1973; Hüseynov, A.Ə. Həbib Cəbiyev. Bakı: 1975; Гусейнов, А.А. Алигейдар Караев. Баку:1976; Məmmədzadə, N.B. Həmid Sultanov. Bakı: 1977; Mədətov, Q. Ruhulla Axundov. Bakı: 1983.

[9] Зейналов, Р., Хоменко, С. Правда без ретуши // -Баку: Коммунист Азербайджана, - 1990. № 3, - с.88-93; Правда и только правда (Белые пятна нашей истории). Баку: 1991.

məzmunu elmi tədqiqatdan daha çox publisistik, emosional xarakter daşıyırdı. Həmin müəlliflər Azərbaycanda sovet sisteminin qüsurlarını və deformasiyalarını, sovet totalitar rejiminin formalaşmasının səbəblərini yalnız M.C. Bağırovun şəxsiyyəti ilə əlaqələndirməyə çalışırdılar. Respublikada Kommunist partiyasının şərtsiz siyasi hakimiyyəti şəraitində tarixçilərimizin hadisələrə baxışlarında hələ də ətalətli yanaşma və ehkamçılıq hissləri hakim rol oynayırdı. Əsərlərin əksəriyyətində faktlara ənənəvi sinfi baxış mövcud idi, partiya isə həqiqətin ali meyarı idi.

Stalinizmin tənqidi ilə eyni vaxtda, respublikada 70 il adlarına, əsərlərinə qadağa qoyulmuş Azərbaycan Xalq Cümhuriyyətinin siyasi xadimlərinin - M.Ə.Rəsulzadənin, M.Ə.Məmmədzadənin və b.-nın əsərlərinin nəşri başlandı. Həmin əsərlər sırf elmi xarakter daşımasa da, onların müəllifləri hadisələri xronoloji qaydada işıqlandırmağa və onlara elmi izah verməyə çalışırdılar. Mühacirətdə olmalarına baxmayaraq, həmin müəlliflər bolşeviklərin dövlət quruculuğunda, iqtisadi və mədəni sahədə milli layihələri barədə nadir bilik nümayiş etdirirdilər.[10]

Müstəqillik illərində Azərbaycan tarixinin sovet dövrünə həsr olunmuş əsərlərdə əvvəlki ideoloji ştamplardan və siyasi stereotiplərdən imtina edilmişdir. Müstəqilliyimizin ilk illərində əvvəllər gizli saxlanılmış arxiv fondlarının açılması prosesi ləng getdiyi üçün müəlliflər 1920-1930-cu illərdə partiyada, cəmiyyətdə baş verən prosesləri daha dərindən dərk etməyi, tədqiqat mövzularını genişləndirə bilmirdilər. Mənbələr kompleksindən birtərəfli istifadə olunması, onlarda gətirilən faktların mütləqləşdirilməsi nəticəsində hadisələrə baxışda emosionallıq hissləri qərəzsizliyə üstün gəlirdi. Buna görə də yazılan əsərlərdə diskussiya səbəb olan bir çox mülahizələr və fikirlər vardı. Sovet dövrünə dair fundamental tədqiqatlar 2000-ci illərdə meydana çıxdı. Şübhəsiz ki, bu gizli arxiv sənədləri üzərində olan qadağaların götürülməsi və onların

[10] Rəsulzadə, M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: 1990; Rəsulzadə, M.Ə. Bolşeviklərin Şərq siyasəti. Bakı: 1994; Rəsulzadə, M.Ə. Национальное движение в Азербайджане. Баку: 2009; Məmmədzadə, M.B. Milli Azərbaycan hərəkatı. Bakı: 1992.

tədqiqatçılar üçün əl çatan olması, tədqiqat mövzularının və onların xronoloji çərçivələrinin genişləndirilməsi, hadisələrin qiymətləndirilməsində bir çox stereotiplərdən azad olunması ilə bağlı idi.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən nəşr edilmiş yeddicildlik “Azərbaycan tarixi”[11] kollektiv monoqrafiyasında qədim dövrdən günümüzə qədər Vətən tariximizinin hadisələrinə yeni baxış bucağı altında araşdırılmasına cəhd göstərilmişdir. Bu akademik işin müəllifləri arasında sovet dövründə üçcildlik “Azərbaycan tarixi” kollektiv monoqrafiyanın hazırlanmasında iştirak etmiş tədqiqatçılar da vardı. Təbii ki, bu müəlliflər yaranmış imkandan istifadə edərək, tarixi hadisələr haqqında bəzi əvvəlki qiymətləndirmələrə və nəticələrə yenidən baxmağa çalışmış, öz tədqiqatlarını yeni mövzularla və sənədli faktlarla zənginləşdirmişdilər. Bundan əlavə, müstəqillik illərində respublikamızın tanınmış tarixçiləri tərəfindən 1920-1930-cu illərdə Azərbaycan SSR-də kadr siyasətinin müxtəlif aspektləri monoqrafiya şəklində tədqiq edilmişdir: həmkarlar ittifaqları, mühəndis-texniki, pedaqoji və elmi kadrlar, qadınların dövlət orqanlarında iştirakı və s. Bu əsərlərin əksəriyyəti sovet dövründə həmin müəlliflərin başladıqları tədqiqatların davamı idi. Ona görə də müəlliflər yeni sənədləri cəlb etməklə əvvəlki əsərlərində qaldırılan məsələləri yeni baxış bucağı altında araşdırmağa çalışmışdılar.[12]

---

[11] Azərbaycan tarixi: [7 cildlik]. VI cild (aprel 1920-iyun 1941). Bakı: 2000.

[12] Умудов, И.М. Создание и деятельность политических учебных заведений в Азербайджане в начале 20-х годов: /автореферат диссертации на соискание ученой степени кандидата исторических наук/- Баку: 1992; Гулиев, Дж.Б. К истории образования второй республики Азербайджана. Баку: 1997; Айдамиров, Т.С. Подготовка национальных кадров квалифицированных рабочих и инженерно-технических работников для промышленности Азербайджана. Баку: 2000; Айдамиров, Т.С. Подготовка инженерно-технических кадров для нефтяной промышленности Азербайджанской ССР (1938-1945). Баку: 2016; Həsənov, V.S. Azərbaycan həmkarlar ittifaqları inzibati-əmirlik rejimi dövründə (XX əsrin 20-30-cu illəri). Bakı: 2004; Керимова, Т. Из истории Академии наук Азербайджана. Баку: 2005; Qasımov, Ş.M. Azərbaycan SSR yaradıcılıq ittifaqlarının yaranması və fəaliyyəti (1920-30-cu illər). Bakı: 2007; Мурадова, А.Д. Вовлечение женщин Азербайджанской ССР в органы государственной власти (20-30-ые годы XX века). Баку: 2007; Ализаде, З.

Müstəqillik illərində Azərbaycan tarixşünaslığında ilk dəfə tədqiqat obyekti olmuş problemlər arasında 1920-1930-cu illərdə Azərbaycan SSR-nin partiya rəhbərliyində hakimiyyətdaxili mübarizə mövzusunu qeyd etmək lazımdır. Bu mövzuya bir neçə dissertasiya, monoqrafiya həsr olunmuşdur, bunların da hər biri problemin müəyyən dövrünü özündə əks etdirirdi. Müəlliflər elmi dövriyyəyə çoxlu sayda yeni arxiv sənədlərini cəlb etmişdilər. Onlar arasında Azərbaycan Kommunist partiyasının Mərkəzi Komitəsinin iclaslarının protokolları, qurultay materialları, partiya rəhbərlərinin yazışmaları və dövrü mətbuat materialları xüsusi yer tutur. Həmin əsərlərdə ilk dəfə olaraq partiyadaxili mübarizə Azərbaycanda milli siyasətin həyata keçirilməsi, müxtəlif qruplar arasında bu siyasətin tədbiq edilməsi üsulları ətrafında mövcud olan fikir ayrılığı prizmasından nəzərdən keçirilirdi. Müəlliflər tərəfindən bu proseslər onların ən fəal iştirakçılarının siyasi portretlərinin, bəzi qrupların parçalanmasının və digərinin formalaşmasının canlı əks olunması fonunda tədqiq olunurdu. Bütün müəlliflər belə bir fikirdə yekdil idilər ki, partiyadaxili mübarizənin kəskinləşməsində əsasən Bakı partiya komitəsinin rəhbərliyində təmsil olunan, Zaqafqaziya və Moskva rəhbərliyi tərəfindən dəstəklənən qeyri-millətlərdən olan kommunistlər günahkar idi. Qarşıdurma doğuran əsas məsələlər arasında respublikanın inkişafı üçün vacib sayılan kadr siyasəti, respublikanın iqtisadi suverenliyi, ziyalılara və fəhlə sinifinə münasibət, Azərbaycan kəndində vəziyyət kimi məsələlər xüsusi yer tuturdu.[13]

---

Развитие высшего исторического образования и подготовка кадров историков в Азербайджанской ССР (1920-1941 гг.). Баку: 2011; Məmmədov, N.Z. Azərbaycanın dövlətçiliyi tarixində Azərbaycan Mərkəzi İcrayyə Komitəsinin yeri və rolu (1921-1938-ci illər). Bakı: 2012; Rüstəmova, A. Azərbaycan SSR-də elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti (1920-iyun 1941-ci illər). Bakı: 2014; Мусаева, Т.А. Культура Азербайджана на рубеже эпох (20-30-ые годы XX столетия). Баку: 2015; Назарли, А.Э. Кадровая политика Азербайджанской ССР в культурно-просветительской сфере: библиотеки, избы-читальни, клубы (1920-1953). Москва: 2018.

[13] Bayramova, R.M. Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər). Bakı: 2007; Aslanova, T.A. Azərbaycan rəhbərliyində siyasi

Tarixçilər arasında Azərbaycanın sovet dövründə bəzi siyasətçilərin tarixi proseslərdə rolu haqqında müzakirələr indiyədək səngimək bilmir. Vətən tarixşünaslığında ən qızğın müzakirələr sovet Azərbaycanının iki böyük siyasi xadimi - Nəriman Nərimanov və Mir Cəfər Bağırovun fəaliyyəti ətrafında aparılır. Birincinin ictimai-siyasi fəaliyyəti sovet dövründə kifayət qədər öyrənilmişdirsə[14], M.C.Bağırovun adı Sovet İttifaqı Kommunist partiyasının XX qurultayından sonra tarixi əsərlərin səhifələrindən silinmişdir. Lakin bu gün də M.C.Bağırovun adı Azərbaycanda birmənalı qəbul edilmir. Bağırovun siyasi portretində Stalin totalitar sisteminə olan mənfi baxış onun Azərbaycanda əsas yaradıcılarından birinə loyal münasibətlə uzlaşır.[15]

Sovet İttifaqı dağıldıqdan sonra sovet tarixçiləri tərəfindən burjua müəllifləri kimi damğalanan xarici sovetoloqların əsərləri bəraət qazanmışdı. İlk dəfə idi ki əvvəllər xüsusi qapalı fondlarda saxlanılan və yalnız seçilmiş tarixçilərə əl catan olan həmin müəlliflərin əsərləri onların ayrı-ayrı hissələrini tənqid edən sovet

---

qruplaşmalar və onun respublikanın ictimai-siyasi həyatına təsiri (XX əsrin 20-ci illərinin ikinci yarısı-30-cu illər): /tarix elmləri üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı/- Bakı: 2012; Ахмедова, Ф. Национальный вопрос и конфликты в большевистской элите в первые годы советизации Азербайджана // Материалы VI международной научной конференции «Советские нации и национальная политика в 1920–1950-е годы», - Киев:- 10–12 октября,- 2013, - Москва: 2014.- с. 620-631; Xəlilov, A. Azərbaycan SSR 1920-1930-cu illərdə: hakimiyyətdaxili qarşıdurmalar. Bakı: 2015.

[14] Əhmədova, F.F. Nəriman Nərimanov-İdeal və gerçəklik ( 1920-ci il). Bakı: 1998; Həsənov, H.Ə. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı: 2005.

[15] Həsənov, C.P. "Ağ ləkə"lərin qara kölgəsi. Bakı: 1991; Bünyadov, Z.M. Qırmızı terror. Bakı:1993; Mir Cəfər Bağırovun məhkəməsi. Bakı: 1993; Исмаилов, Э.Р. Власть и народ. Послевоенный сталинизм в Азербайджане 1945-1953. Баку: 2003; Исмаилов, Э.Р. Азербайджан: 1953-1956 гг. Первые годы «оттепели». Баку: 2006; Исмаилов, Э.Р. История «большого террора» в Азербайджане. Москва: 2015; Əhmədov, R.H. Mir Cəfər Bağırov (Dövrünün və şəxsiyyətinin siyasi portretinin cizgiləri). Bakı: 2004; Мамедова, Ш.Р. Интерпретация тоталитаризма. Сталинизм в Азербайджане 1920-1930 гг. Баку: 2004; Мамедова, Ш.Р. Azərbaycan SSR-də inzibati-amirlik sistemi (1920-1930-cu illər): / tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiyanın avtorerferatı/ - Bakı: 2014; Qurban, T. Düşmənlərindən güclü şəxsiyyət. Bakı: 2015.

tarixçilərinin kitabları vasitəsilə deyil, tam şəkildə tarixçilərimizin istifadəsinə verilmişdir. Bu müəlliflərin əsərləri ilə tanış olduqdan sonra, biz sovet tarix elmində üzərlərində ideoloji qadağa qoyulmuş mövzuların, əksinə, xarici tədqiqatçıların əsərlərinin diqqət mərkəzində olduğunun şahidi olduq.[16]

Sovet İttifaqının dağılması nəticəsində milli problemlərə bir qədər gec olsa da, marağın artması keçmiş ittifaqın ayrı-ayrı respublikalarında sovet milli siyasətinin tarixinə dair ümumiləşdirici əsərlərin yazılmasına gətirib çıxartdı. Hazırda Sovet İttifaqının yeni, beynəlmiləl tarixşünaslığının təşəkkülü prosesi gedir və bu proses 2000-ci illərdə daha da güclənmişdir. Nəticədə ayrı-ayrı ölkələrin tarixçiləri bu gün eyni tarixi ədəbiyyatı oxumaq, eyni mənbələrdən istifadə etmək imkanına malikdirlər. Həmin tarixçilər arasında mütəmadi olaraq elmi əlaqələrin genişlənməsi və bu əlaqələrin qarşılıqlı zənginləşməsi prosesi gedir.[17]

---

[16] Джилас, М. Новый класс. Нью-Йорк:1961; Карр, Э. История Советской России: [в 14 книгах]. Книга 1, том 1 и 2. Москва: 1990; Карр, Э. Русская революция от Ленина до Сталина. 1917-1929. Москва: 1990; Авторханов, А. Империя Кремля. Советский тип колониализма. Garmisch-Partenkirchen: 1991; Восленский, М.В. Номенклатура - господствующий класс Советского Союза. Москва: 1991: Хоскинг, Дж. История Советского Союза 1917-1991. Москва: 1994; Хоскинг, Дж. Правители и жертвы. Русские в Советском Союзе. Москва: 2012; Пайпс, Р. Русская революция: [в 3-х книгах]. Книга 3. Россия под большевиками. 1918—1924. Москва: - 2005.

[17] Altstadt, A. L. The Azerbaijani turks: pover and identitu under Russian rule. Stanford, Kalifornia: 1992; Фицпатрик, Ш. Повседневный сталинизм. Социальная история Советской России в 30-е годы: город. Москва: 2008; Фицпатрик, Ш. Сталинские крестьяне. Социальная история Советской России в 30-е годы: деревня. Москва: 2008; Баберовски, Й. Враг есть везде. Сталинизм на Кавказе. Москва: 2010; Истер, Дж. М. Советское государственное строительство. Система личных связей и самоидентификация элиты в Советской России. Москва: 2010; Мартин, Т. Империя «положительной деятельности». Нации и национализм в СССР, 1923-1939. Москва: 2011; Шаттенберг, С. Инженеры Сталина: Жизнь между техникой и террором в 1930-е годы. Москва: 2011; Штудер, Б., Унфрид, Б. Сталинские партийные кадры. Практика идентификации и дискурсы в Советском Союзе 1930-х гг. Москва: 2011. Юинг, Е.Т. Учителя эпохи сталинизма: власть, политика и жизнь школы 1930-х гг. Москва: 2011.

Sovet milli siyasətinin tədqiqat formasından biri də ayrı-ayrı mövzulara həsr olunmuş məqalələr toplularıdır. Bu topluların xarakterik xüsusiyyəti ondan ibarətdir ki burada Kommunist partiyasının və sovet dövlətinin tarixinin müəyyən bir dövrü və ya problemi araşdırılır. Bu toplular uzun müddət üzərində qadağalar qoyulmuş problemlərin araşdırılmasına həsr olunmuşdur. Burada bir çox maraqlı faktlara, məlumatlara, bəzən bir-birinə ziddiyət təşkil edən fikirlərə rast gəlmək olar. Bu topluların əhəmiyyəti, ilk növbədə, ondan ibarətdir ki onların müəllifləri sovet tarixşünaslığında öyrənilməmiş mövzulara müraciət edərək müasir tədqiqatçılarda o dövrün hadisələrinə baxışda və onların qiymətləndirilməsində yeni yaradıcı fikirlər oyatmışdılar.[18]

Dissertasiyada Azərbaycan Respublikasının (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi, Azərbaycan Respublikasının Dövlət Arxivi) və Rusiya Federasiyasının (Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi) arxiv sənədlərindən, partiya qurultaylarının və konfranslarının materiallarından[19],

---

[18] Некоторые вопросы истории Коммунистической партии Азербайджана в 20-30-е гг. : (Сб. науч. ст.). Баку: 1990; Американская русистика: Вехи историографии последних лет. Советский период: Антология. Самара: 2001; Новая имперская история постсоветского пространства. Сборник статей. Казань: 2004; История сталинизма: итоги и проблемы // Материалы международной научной конференции,- Москва:- 5-7 декабря,- 2008,- Москва:2011; Советские нации и национальная политика в 1920–1950-е годы // Материалы VI международной научной конференции, - Киев:- 10–12 октября,- 2013, - Москва: 2014; Культура и власть в СССР. 1920-1950-е годы // Материалы IX международной научной конференции,- Санкт-Петербург:- 24-26 октября,- 2016, - Москва: 2017.

[19] Первый Всеазербайджанский съезд Советов рабочих, крестьянских, красноармейских и матросских депутатов. Стенографический отчет. Баку: 1922; XIII Общебакинская партийная конференция. Стенографический отчет. Баку: 1924; Четвертый Всеазербайджанский съезд Советов рабочих, крестьянских, красноармейских и матросских депутатов. Стенографический отчет. Баку:1925; XVI Общебакинская партийная конференция АКП(б). 27 декабря-6 января 1927 г. Стенографический отчет. Баку: 1927; XV съезд Всесоюзной Коммунистической партии (б). Стенографический отчет. Москва-Ленинград: 1928; XVIII Бакинская конференция Азербайджанской Коммунистической партии (б). 20-31 января 1929 г. Стенографический отчет. Баку: 1929; XVI съезд Всесоюзной Коммунистической партии (б).

nəşr olunmuş sənədlər toplularından[20], statistik məcmuələrdən[21] və dövrü mətbuat materiallarından (“Bakinski raboçiy”, “Kommunist”, “Pravda”) istifadə edilmişdir.

---

Стенографический отчет. Москва: 1930; XVII съезд Всесоюзной Коммунистической партии (б). Стенографический отчет. 26 января - 10 февраля 1934 года. Москва:1934; XVIII съезд Всесоюзной коммунистической партии (б). 10 – 21 марта 1939 г. Стенографический отчет. Москва:1939; Первая сессия Верховного Совета Азербайджанской ССР первого созыва. 18-22 июня 1938 г. Стенографический отчет. Баку: 1939; Коммунистическая партия Советского Союза в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: [в 2 частях]. Часть 1 (1898-1925). Москва: 1953; Коммунистическая партия Советского Союза в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: [в 2 частях]. Часть 2 (1925-1953). Москва: 1953; Двенадцатый съезд РКП (б). 17-25 апреля 1923 года. Стенографический отчет. Москва: 1968; КПСС в резолюциях и решениях съездов, конференций и пленумов ЦК. Т.4. Москва: 1981; Тринадцатый съезд РКП(б). Май 1924 года. Стенографический отчет. Москва: 1983; Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: [в 4 томах]. Т. 1(1920-1937). Баку: 1986; Тайны национальной политики ЦК РКП(б). Четвертое совещание ЦК РКП с ответственными работниками национальных республик и областей в Москве 9-12 июня 1923 г. Стенографический отчет. Москва: 1992.

[20] Большевистское руководство. Переписка. 1912-1927. Сборник документов. Москва: 1996; Советское руководство. Переписка. 1928-1941 гг. Москва: 1999; Трагедия советской деревни. Коллективизация и раскулачивание. 1927-1939: Документы и материалы:[ в 5 томах]. Т. 5 (1937—1939), кн. 2 (1938—1939). Москва: 2006; ЦК РКП (б) – ВКП (б) и национальный вопрос : [в 2-х книгах ]. Кн 1.1918-1933. Москва: 2005; ЦК ВКП (б) и национальный вопрос: [в 2-х книгах ]. Кн. 2. 1933-1945. Москва: 2009.

[21] Всероссийская перепись членов РКП 1922 года. Москва: 1924; Советский Азербайджан в цифрах на 1929 г. Баку: 1929; Национальная политика ВКП (б) в цифрах. Москва: 1930; Основные показатели народного хозяйства Азербайджанской ССР. Баку: 1934; Социалистическое строительство АССР. Статистический сборник. Баку: 1935; Достижения Советской власти за 40 лет в цифрах. Статистический сборник. Москва: 1957; Достижения Советского Азербайджана за 40 лет в цифрах. Статистический сборник. Баку: 1960; Промышленность Азербайджана за 40 лет (1920-1960). Баку: 1960; Борьба за победу Советской власти в Азербайджане 1918-1920. Документы и материалы. Баку: 1967; Коммунистическая партия Азербайджана в цифрах. Баку: 1970; Народное хозяйство Азербайджанской ССР к 50 летию СССР. Баку: 1972;

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyekti kimi XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-də milli məsələnin tərkib hissəsi olan kadr siyasəti seçilmişdir. Azərbaycan SSR-də milli məsələnin həlli formalarından biri kimi kadrların milliləşdirilməsi siyasətinin mahiyyəti və əsas mərhələləri, partiya aparatında, ali dövlət hakimiyyəti orqanlarında, iqtisadiyyatın əsas sahələrində, təhsil və elm sahələrində kadr siyasətinin həyata keçirilməsinin üsul və formaları tədqiqatın əsas predmetini təşkil edir.

**Tədqiqatın əsas məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi 1920-1930-cu illərdə Azərbaycan SSR-də milli məsələnin həllinin tərkib hissəsi olan kadr siyasətini araşdırmaq, onun həyata keçirilən milliləşdirmə siyasəti çərçivəsində keyfiyyət parametrlərini, həyata keçirilmə üsullarını və formalarını müəyyənləşdirməkdir. Qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müəllif aşağıdakı vəzifələri həll etməli idi:

- kadrların milliləşdirilməsi siyasətinin mahiyyətini açmaq və onun Azərbaycan SSR-də həyata keçirilməsi xüsusiyyətlərini göstərmək;
- Azərbaycan SSR-də ali dövlət hakimiyyəti orqanlarının təşkilati forması və strukturu, rəhbər tərkibi haqqında məlumat vermək;
- Azərbaycan Kommunist partiyasının aparatının təşkilati forması və strukturu, rəhbər tərkibi haqqında məlumat vermək, nomenklatura kadrlarının ucota alınması və seçilməsini təmin edən əsas partiya strukturlarını müəyyənləşdirmək;
- partiya kadrlarının seçilməsinin əsas keyfiyyət parametrləri olan sosial, etnik tərkibini və təhsil səviyyəsini araşdırmaq;
- partiya kadrlarının xalq təsərrüfatının müxtəlif sahələrində yerləşdirilməsi məsələsini işıqlandırmaq;
- partiya-siyasi təhsil şəbəkəsi vasitəsilə kadr hazırlığı məsələsini araşdırmaq;
- partiya təmizləmələrinin və "Böyük terror"un partiya kadrlarının kəmiyyət və keyfiyyət tərkibinin dəyişməsinə təsirini göstərmək;

---

Декреты Советской власти: [18 томов]. Т. 6. Москва: 1973; Ленинский призыв в Азербайджане : Документы и материалы. Баку: 1974. Декреты Азревкома (1920-1921). Баку: 1988; Azərbaycan İnqilab Komitəsi və Xalq Komissarları Soveti İclaslarının Protokolları 1920-1922-ci illər. Bakı: 2009.

- sənaye və kənd təsərrüfatı üçün mühəndis-texniki və fəhlə kadrların hazırlanması məsələsini işıqlandırmaq;

- pedaqoji və elmi ziyalı kadrların hazırlanması məsələsini araşdırmaq.

**Tədqiqat metodları.** Tədqiqatda bütün tarixi hadisələr onların yaranması, inkişafı, konkret-tarixi şəraitdə dəyişməsi prosesində araşdırılmış, sonrakı tarixi inkişaf üçün həmin hadisələrin əhəmiyyətini müəyyən edən tarixçilik prinsipi tətbiq edilmişdi. Müəllif tərəfindən faktlar və materiallar toplanmış, onlar müqayisəli təhlil üsulu ilə araşdırılmış və ümumiləşdirilmişdi.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- kadr siyasəti bolşeviklərin milli siyasətinin ən vacib istiqamətlərindən biri idi və 1920-ci illərin əvvəllərində onların elan etdikləri milliləşdirmə siyasəti çərçivəsində həyata keçirilirdi;

- kadrların seçilməsinin, irəli çəkilməsinin və təyin edilməsinin əsas prinsipləri və keyfiyyət parametrləri dövlət hakimiyyətinin əsas sütunü olan və üzvlərini onun bütün səviyyələrində yerləşdirən Kommunist partiyasının rəhbərliyi tərəfindən müəyyən edilirdi;

- nomenklatura kadrlarının üçotu, seçilməsi və yerləşdirilməsi üçün ciddi şəkildə tənzimlənmiş və təşkilatlanmış bir sistem yaradılmışdır;

- Azərbaycanda kadrların milliləşdirmə siyasəti ali dövlət hakimiyyəti orqanlarında və yerli partiya təşkilatlarında uğurla aparıldığı halda, Bakı partiya komitəsində və mərkəzi dövlət qurumlarında kifayət gədər ləng gedirdi;

- rəhbər nomenklatura kadrların hazırlanmasında partiya-siyasi maarifləndirmənin çoxşaxəli və çoxsəviyyəli şəbəkəsi böyük rol oynamışdır;

- kadr siyasətində buraxılan səhvlər və əyintilər 1920-ci illərdə - 30-cu illərin əvvəllərində hakimiyyətdaxili qarşıdurmaların səbəblərindən biri idi;

- partiya təmizləmələri və siyasi repressiyalar kadrlara nəzarət tədbirləri kompleksinin mühüm elementləri olmuşdular;

- yerli əhali arasında savadsızlığın səviyyəsi yüksək olduğu halda pedaqoji kadrların tərkibində azərbaycanlıların xüsusi çəkisi texniki profilli mütəxəssislərdən daha yüksək idi;

- Azərbaycanda ilk elmi müəssisələrin, ictimai və təbiət elmləri sahəsindəki müxtəlif istiqamətlərin yaradılmasında əsasən RSFSR-dən dəvət olunmuş professor-müəllim heyətinin böyük rolu olmuşdur;

- 1930-cu illərdən başlayaraq ali təhsil müəssisələri şəbəkəsinin genişlənməsi, aspirantura institutunun, Elmlər Akademiyası sisteminin və müxtəlif sahələr üzrə yeni elmi müəssisələrin yaradılması milli elmi ziyalı kadrların hazırlanmasında böyük rol oynamışdır.

**Mövzunun elmi yeniliyi**. Dissertasiya işi milli tarixşünaslıqda 1920-1930-cu illərdə Azərbaycan SSR-də kadr siyasətinin ilk hərtərəfli tədqiqatıdır. Dissertasiyada çoxlu sayda yeni arxiv sənədlərinin, sənədlər toplularının və xarici tədqiqatların elmi dövriyyəyə ilk dəfə gətirilməsi nəticəsində Vətən tarixşünaslığında əvvəllər araşdırılmamış və ya az öyrənilmiş aşağıdakı məsələlər nəzərdən keçirilmişdi:

- milliləşdirmə siyasətinin mahiyyəti, onun kadr sahəsində həyata keçirilmə üsulları və formaları;

- partiya aparatının və ali dövlət hakimiyyəti orqanlarının təşkilati forması, strukturu, rəhbər heyəti;

- nomenklatur kadrların uçotu və seçilməsi sisteminin tənzimlənməsinin təşkilati strukturları;

- kadrların seçilməsinin və irəli çəkilməsinin əsas keyfiyyət parametrləri;

- partiya-siyasi təhsil şəbəkəsi vasitəsilə kadr hazırlığı;

- partiya təmizləmələrinin və siyasi repressiyaların kadrların keyfiyyət və kəmiyyət göstəricilərinə təsiri.

- Sənayedə və kənd təsərrüfatında kadr siyasəti dissertasiyada Azərbaycanda iqtisadiyyatın strukturunun xüsusiyyətləri, respublika əhalisinin milli və sosial tərkibi nəzərə alınmaqla araşdırılmışdı. Tədqiqatda Azərbaycanın sənayesi və kənd təsərrüfatı üçün kadr hazırlayan əsas təhsil müəssisələrinin fəaliyyəti xüsusi tədqiqat obyekti olmuşdur.

- Dissertasiyada araşdırılan dövrdə Azərbaycan müəllimi, onun sosial siması ayrıca tədqiqat obyekti kimi seçilmişdir. Elmi ziyalı kadrların hazırlanması məsələsi dissertasiyada işçi fakültələrin təşkili,

yeni ali təhsil müəssisələrinin yaradılması, aspirantura institutu, elmi cəmiyyətlər və Elmlər Akademiyası sistemi səviyyəsində araşdırılmışdır. Tədqiqatda gətirilən xüsusi statistik məlumatlar pedaqoji və elmi ziyalı kadrların tərkibindəki keyfiyyət və kəmiyyət dəyişiklikləri özündə əks etdirir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiyada araşdırılan dövr Azərbaycan SSR-də sovet kadr siyasətinin öyrənilməsində mühüm mərhələdir. Dissertasiyada XX əsrin 20-30-cu illərində milliləşdirmə siyasətinin əsas proqram sənədləri, kadrların seçilməsi, irəli sürülməsi və təyin edilməsi üçün əsas meyarlar və metodlar müəyyən edilmiş, kadr siyasətinə məsul olan əsas hakimiyyət qurumları göstərilmişdir. Kadr siyasəti ilə bağlı dissertasiyada əldə olunmuş elmi nəticələr təkcə tədqiq olunan dövr üçün deyil, həm də Sovet Azərbaycanı tarixinin sonrakı mərhələləri üçün də aktual idi. Buna görə tədqiqatda əldə olunmuş nəticələrdən Azərbaycanın müasir tarixinə həsr edilmiş ümumiləşdirilmiş və xüsusi tədqiqatların, Azərbaycan SSR-nin ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafının müxtəlif sahələrində kadr siyasətinə həsr olunmuş əsərlərin yazılmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya mövzusu üzrə müəllifin 1 monoqrafiyası, 32 məqaləsi və tezisi Azərbaycan Respublikasında, Türkiyə Cümhuriyyətində, Rusiya Federasiyasında, Gürcüstanda və Ukraynada dərc olunan elmi jurnallarda və keçirilən elmi konfransların materiallarında çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın Sovet dövrü tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiyanın strukturu girişdən, 5 fəsildən, 12 yarımfəsildən, nəticədən, ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir. Dissertasiyanın ümumi həcmi (ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla) 482665 işarə təşkil edir. Bunlardan "Giriş" - 28690, I fəsil - 74079, II fəsil - 128487, III fəsil - 96024, IV fəsil - 63487, V fəsil - 75222, "Nəticə" - 14690 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

“Giriş”də problemin aktuallığı və işlənmə dərəcəsi açıqlanmış, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti müəyyən edilmişdir.

**“Kadrların milliləşdirilməsi siyasəti Azərbaycan SSR-də milli məsələnin həlli formalarından biri kimi (XX əsrin 20-30-cu illəri)”** adlı birinci fəsil iki yarımfəsildən ibarətdir. **“Kadrların milliləşdirilməsi siyasətinin mahiyyəti və onun Azərbaycanda həyata keçirilməsinin xüsusiyyətləri”** adlı birinci yarımfəsildə 1920-1930-cu illərdə milli ucqarlarda milli məsələnin mahiyyəti, əsas mərhələləri və bolşeviklər tərəfindən həll edilməsi formaları araşdırılır. Qeyd olunur ki, partiyanın 1923-cü ilin aprel ayında keçirilmiş XII qurultayında və həmin ilin iyun ayında Moskvada keçirilmiş milli respublikaların və vilayətlərin məsul işçilərinin IV müşavirəsində qəbul edilmiş qətnamələrdə sovet milli siyasətinin mahiyyəti sxem şəklində öz əksini tapmışdır. Bu qətnamələr, İ.Stalinin çıxışları ilə birlikdə, bolşevik milli siyasətinin əsas normativ sənədlərini təşkil etmişdilər. Tezliklə bu siyasət milliləşdirmə və ya yerliləşdirmə adlandırılmışdır. Bolşeviklərin bu nəzəriyyəsinə əsasən milli ucqarlarda rəhbər kadrların tərkibində titul millətin nümayəndələrinin çəkisinin yüksək olması ölkədə xalqlar bərabərliyini və yerli dövlətlərin milli xarakterini nümayiş etdirməli idi.

1926-cı ilin ortalarına qədər ittifaq respublikalarının dövlət aparatının milliləşdirilməsi mexaniki üsul ilə aparılırdı. Hər təşkilat üçün onun heyətində milli işçilərin xüsusi çəkisini müəyyən edən planlar hazırlanmışdır. Lakin dövlət aparatının mexaniki üsul ilə milliləşdirilməsi təcrübəsi onu həyata keçirmək üçün planların real olmadığını göstərdi. Milli respublikalarda aparılan mexaniki milliləşdirmə ortada boşluq yaratmışdır. İdarəetmə və xidmət sahəsində yerlilərin xüsusi çəkisi yüksək olduğu halda peşəkarlıq tələb edən vəzifələrdə onların sayı çox cüzi idi. Bu səbəbdən 1926-cı ilin sonunda Moskva milliləşdirmənin həyata keçirilməsi zamanı mexaniki üsulu funksional üsul ilə əvəz etdi. Funksional milliləşdirmə

sistemi kadrların peşə hazırlğı və təşkilatların həmin kadrlara ehtiyaclarını nəzərə almalı idi. Beləliklə funksional milliləşdirmə sistemi yerli əhalinin təhsil sahəsində müvəffəqiyyətindən asılı idi.

Arxiv sənədlərindən aşkar edilmiş statistik məlumatlarda 1920-1930-cu illərdə Azərbaycan SSR partiya və dövlət hakimiyyətinin, dövlət qurumlarının ali strukturlarında kadrların milliləşdirilməsi siyasətinin nəticələrinə dair konkret rəqəmlər gətirilir. Tədqiq olunan dövrdə partiya aparatının millliləşdirilməsi Bakıdan kənarda daha sürətlə gedirdi. 1939-cu ildə Azərbaycan K(b)P 88 vilayət, şəhər və rayon komitələrinin katibləri içərisində azərbaycanlılar birinci katiblərin 70,5 %-ni, ikinci katiblərin 43,2 %-ni, üçüncü katiblərin 54,5 %-ni təşkil edirdilər.[22] 1940-cı il 1 yanvar tarixinə olan məlumata görə AK(b)P-nın üzvlərinin 44% təşkil edən [23] Bakı partiya komitəsində azərbaycanlılar xüsusi çəkisinə görə birinciliyi rus və erməni kommunistləri ilə bölüşürdülər. 1939-cu ilə olan məlumata görə Bakı partiya təşkilatının rayon komitələrinin 17 birinci katibi arasında 8 azərbaycanlı, 3 rus, 2 erməni və 4 nəfər digər millətlərin nümayəndəsi var idi.[24]

Sovet hakimiyyətinin ilk günlərindən əsası qoyulmuş ənənəyə görə azərbaycanlılar hakimiyyətin qanunverici və icraedici qollarında sayca üstünlük təşkil edirdilər. 1 aprel 1929-cu ilə olan məlumata görə, türklər[*] Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi (AMİK) işçilərinin 80%-ni təşkil edirdi. [25] 1920-1930-cu illərdə respublikanın ali qanunvericilik orqanının sədrləri yalnız türk kommunistləri idi. Azərbaycan SSR hökumətində xalq komissarlarının əksəriyyətini

---

[22] Azərbaycan SSR K P(b) rayon, şəhər və vilayət komitələri katiblərinin milli və sosial tərkibi haqqında statistik məlumatlar (Bakı: 1939) //ARPİİİSSA, Fond № 1, siyahı № 22, iş № 546, vərəq 39.

[23] Коммунистическая партия Азербайджана в цифрах, с. 155-158.

[24] Azərbaycan SSR KP(b) rayon, şəhər və vilayət komitələri katiblərinin milli və sosial tərkibi haqqında statistik məlumatlar (Bakı: 1939) //ARPİİİSSA, Fond № 1, siyahı № 22, iş № 546, vərəq 40.

[*] 1937-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilənədək rəsmi sənədlərdə azərbaycanlılar türk adlandırılırdı.

[25] Azərbaycan SSR dövlət qurumlarının milli tərkibi (Bakı: 1929-cu ilin apreli) //ARPİİİSSA, Fond № 1, siyahı № 77, iş № 65, vərəq 99.

türklər təşkil edirdi. 1 dekabr 1939-cu ilə olan məlumata görə, xalq komissarları və respublikanın rəhbər işçiləri arasında 42 azərbaycanlı, 17 rus, 13 erməni, 2 Kazan tatarı, 2 kürd, 2 ləzgi, 1 yunan-tatar və 2 yəhudi var idi.[26]

Milliləşdirmənin ləng getdiyi dövlət idarələri arasında Bakı Soveti, Həmkarlar ittifaqı və "Azneft" xüsusi yer tuturdular. 1920-ci illərdə milliləşdirmənin ağsadığı dövlət qurumları arasında əmək, torpaq komissarlıqlarını, pambıq kooperasiyası, «Azkolxozsentr» və digər dövlət qurumlarını  qeyd etmək lazımdır. Beləliklə, hakimiyyət orqanlarının bütün səylərinə baxmayaraq, araşdırılan dövrün sonuna qədər Azərbaycan SSR-də azərbaycanlıların rəhbər vəzifələrdə xüsusi çəkisi (50,3%) hələ də əhalinin milli tərkibində xüsusi çəkisindən (58.4%)[27] aşağı idi.

Bolşevik rəhbərliyi rəhbər kadrların milli mənsubluğunu vurğulamaqla yanaşı, dil amilini milliləşdirmə siyasətinin əsas meyarlarından  biri hesab edirdi. Araşdırılan dövrdə rus dili mərkəzi partiya və dövlət aparatında üstün mövqe tuturdu. Mərkəzi və Bakı Komitəsinin bütün protokolları, onların xalq komissarlıqları və dövlət idarələri ilə yazışmaları rus dilində aparılırdı. Bakıdan kənarda, sovet aparatının aşağı pillələrində və ədliyyə aparatında türk dilinin işlənməsi daha sürətlə gedirdi, çünki həmin yerlərdə əsasən 1930-cu illərin əvvəllərində latın əlifbasını mənimsəmiş türklər işləyirdi. Dağlıq Qarabağın Muxtar Vilayəti ilə yazışmalar rus və erməni dillərində aparılırdı. Tatların, talışların, udinlərin, ləzgilərin, kürdlərin, avarların, tsaxurların yaşadığı bölgələrlə yazışmalar türk və rus dillərində aparılırdı.

**"Ali dövlət hakimiyyəti orqanlarında kadr siyasəti"** adlı ikinci yarımfəsildə qeyd olunur ki, Azərbaycanda yeni bolşevik hakimiyyətinin təşkili mexanizmi bütövlükdə Rusiyada tətbiq olunan qaydada həyata keçirilirdi. İnqilab komitələrinin yaradılması təcrübəsi Azərbaycanda bolşeviklərə qarşı artan müqavimət şəraitində çox səmərəli tədbir olmuşdu.

---

[26] Azərbaycan SSR xalq komissarlarının və rəhbər  respublika işçilərinin milli tərkibi (Bakı: 1 dekabr 1939-cu il) //ARPİİİSSA, Fond № 1, siyahı № 17, iş № 412, vərəq 103.
[27] Всесоюзная перепись населения 1939 года: Основные итоги.Москва: 1992, с. 200.

Mövcud olduğu dövrdə (aprel 1920-may 1921-ci illər) Azərbaycan Müvəqqəti İnqilab Komitəsi respublikanın partiya aparatının nəzarəti altında fəaliyyət göstərmişdi. Müvəqqəti İnqilab Komitəsinin bəzi üzvlərinin eyni zamanda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü olduqlarını nəzərə alsaq, bu nəzarət sinxron xarakter daşıyırdı. Mərkəzi və yerli inqilab komitələrinin mövcudluğu dövründə onların tərkibi mütəmadi olaraq yenilənirdi, strukturu genişlənirdi və beləliklə, fəaliyyətləri üçün ən məqbul forma axtarışı gedirdi. Tək dəyişməyən inqilab komitələrinin fəaliyyətinə xas olan fövqəladə iş üslubu idi.

1921-ci ildə Azərbaycan SSR-nin Konstitusiyasının qəbul olunması ilə Müvəqqəti İnqilab Komitəsi ləğv edilmiş və respublikada ali hakimiyyət orqanları aşağıdakı sistem üzrə qurulmuşdur: ÜmumAzərbaycan Sovetlərinin qurultayı, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Şurası. Bu üçlükdə Fəhlə, Kəndli, Qırmızı Əsgər və Dənizçi deputatları Sovetinin ümum-Azərbaycan qurultayı əsas rolu oynayırdı və o, Azərbaycan zəhmətkeşlərinin ali hakimiyyət orqanı kimi çıxış edirdi.

1921-1937-ci illərdə Azərbaycan Sovetlərinin doqquz qurultayı keçirilmişdir. Azərbaycan Sovetlərinin qurultaylarının çağırılması arasında olan müddətdə Azərbaycan Respublikasında ali hakimiyyət Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə məxsus idi. AMİK ali qanunverici, sərəncamverici və nəzarətedici hakimiyyət orqanı idi, birbaşa qurultayda seçilirdi və tamamilə qurultaya tabe idi. AMİK-nin sədri bu orqanın hər yeni çağırışının birinci iclasında onun səlahiyyət müddəti dövrü üçün seçilirdi. AMİK sədri ilə yanaşı, onun müavini və katib seçilirdi. Azərbaycan Sovetlərinin I qurultayında Muxtar Hacıyev AMİK-in sədri (1921-1922) seçilmişdir. Daha sonra AMİK sədri vəzifəsinə S.Ağamalıoğlu (1922-1929), Q.Musabəyov (1929-1931), S.M.Əfəndiyev (1931-1937) seçilmişdilər. M.Hacıyev, Q.Musabəyov və S.M.Əfəndiyev 1937-1938-ci illər repressiyalarının qurbanı olmuşdular.

Sədrlə yanaşı AMİK-nin sədr müavini və katibi də seçilirdi. AMİK-nin tərkibi partiya, hökumət, təsərrüfat, ictimai təşkilatların və dövlət qurumlarının  üzvlərindən ibarət idi. AMİK-nin sosial və milli

tərkibi partiyanın ideoloji qaydalarına uyğun formalaşırdı. Bu o demək idi ki, AMİK-in tərkibinə fəhlə, kəndli və ziyalı təbəqəsinin, respublikada yaşayan ən iri milli azlıqların (rus və erməni) nümayəndələri daxil idi. Bundan əlavə, Naxçıvan MSSR-nın və DQMV-nin nümayəndələri, partiya təşkilatlarının rəhbərləri, aparıcı sənaye və dövlət orqanlarının ( "Azneft", BSİ-XDİK, Bakı Soveti) rəhbərləri də bura aid idilər. AMİK üzvləri geniş hüquqlara, şəxsi toxunulmazlığa malik idilər. Onlar yerli hakimiyyət orqanlarının, dövlət qurumlarının və ictimai təşkilatların iclaslarında məşvərətçi səslə iştirak edə bilərdilər.

1937-ci ilin martında Azərbaycan Sovetlərinin tarixində sonuncu IX qurultay keçirilmişdir. Həmin qurultay Azərbaycan SSR-in yeni Konstitusiyasını qəbul etmişdir. Bu Konstitusiya 1936-cı ildə qəbul edilmiş SSRİ Konstitusiyasının müddəaları əsasında tərtib edilmişdir. Əsas Qanuna görə hakimiyyət strukturlarında dəyişikliklər nəzərdə tutulurdu. Belə ki, AMİK ləğv edilmiş, əvəzində isə bütün əhali tərəfindən seçilmiş və bir palatadan ibarət olan Azərbaycan SSR-nin ali qanunverici orqanı - Ali Sovet yaradılmışdır.

Müharibədən əvvəl Azərbaycan SSR Ali Sovetinə seçkilər cəmi bir dəfə -1938-ci ildə keçirilmişdir. Ali Sovet Azərbaycan SSR-də ali dövlət hakimiyyəti orqanı olduğundan, ilk növbədə titul xalqın hakimiyyətini təcəssüm edirdi. Ali Sovetdə azərbaycanlıların xüsusi çəkisi əhalinin tərkibində olduğundan yüksək idi. Azərbaycanlılardan başqa Ali Sovetdə respublikada yaşayan bütün milli və etnik azlıqların nümayəndələri təmsil olunmuşdu. 310 xalq deputatı içərisində 206 azərbaycanlı, 38 erməni, 36 rus, 7 ukraynalı, 7 yəhudi, 7 ləzgi, 3 gürcü, 1 kürd, 1 udin, 1 tsaxur, 1 avar və digərləri vardı.[28]

Ali Sovetin deputatları arasında (əvvəllər Sovetlər qurultayında olduğu kimi) respublikanın əsas sosial təbəqələrinin nümayəndələri təmsil olunurdu: fəhlələr, kəndli-kolxozçular və ziyalılar. Xalq deputatı statusu Mərkəzi Komitənin bütün katiblərinə, hökumətin bütün üzvlərinə, vilayət, şəhər və rayon partiya komitələrinin

---

[28] Первая сессия Верховного Совета Азербайджанской ССР первого созыва. 18-22 июня 1938 г. Стенографический отчет, с. 31.

katiblərinə, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Mərkəzi İcraiyyə komitəsinin və Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə komitəsinin sədrlərinə, əsas sənaye birliklərinin və müəssisələrinin, elmi və yaradıcılıq müəssisələrinin rəhbərlərinə həvalə edilirdi. Onların əksəriyyəti partiya üzvü və üzvlüyə namizədlər idi. Qalan boş qalmış yerləri isə istehsalatda və yaradıcılıqda yüksək göstəricilərlə fərqlənmiş fəhlə, kəndli və ziyalı kollektivlərinin nümayəndələri tuturdu. Bu zaman xalq nümayəndələrinin milli tərkibi əvvəlcədən proqramlaşdırılırdı və bura azərbaycanlılardan başqa, ilk növbədə, respublikanın ən iri milli azlıqlarının nümayəndələri (ruslar, ermənilər) daxil edilirdi.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti aşağıdakı tərkibdə seçilirdi: sədr, onun iki müavini (Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinin və DQMV İcraiyyə Komitəsinin sədrləri), katib və Rəyasət heyətin 10 nəfər üzvü. Rəyasət heyətinə AK (b)P Mərkəzi Komitəsinin birinci katibi, AK(b)P Mərkəzi Komitəsinin katiblərindən biri daxil edilirdi. Rəyasət Heyəti əsas işçi orqan idi. Ali Sovetin Rəyasət Heyətinin əsas siması onun sədri idi. Bu vəzifəni tutan şəxs respublikanın ali rəhbərliyinə daxil idi, Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin tamhüquqlu üzvü idi. Əslində, ali qanunverici orqan Mərkəzi Komitənin aparatı tərəfindən hazırlanmış qanunları möhürləyən hüquqsuz bir hakimiyyət orqanına çevrilmişdi, onun rəhbəri isə bir növ maneken rolunu oynayırdı. 1938-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin ilk sədri vəzifəsinə Mir Bəşir Qasımov seçilmişdir. O, bu vəzifəni 1949-cu ilədək tutmuşdur. Ali Sovetin sessiyalarını onun sədri aparırdı. Araşdırılan dövrdə Azərbaycan SSR Ali Sovetinin sədri vəzifəsini Mir Teymur Yaqubov (1938-1941) tuturdu.

Respublikanın iqtisadi və mədəni həyatını idarə etmək üçün hökumət - Xalq Komissarları Şurası (XKŞ) yaradılmışdır. 28 aprel 1920-ci ildə yaradılmış və respublikanın ali icraedici orqanı olan Azərbaycan Xalq Komissarları Şurasının tərkibinə ali qanunverici orqanın- Müvəqqəti İnqilab Komitəsinin bir neçə üzvü daxil idi, N. Nərimanov isə hər iki hakimiyyət orqanının sədri idi. Beləliklə, eyni şəxslər eyni zamanda ali dövlət hakimiyyətinin hər iki qolunda – qanunverici və icraedici hakimiyyətində təmsil olunmuşdular.

1921-ci ildə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasına əsasən, Xalq Komissarları Şurası Azərbaycanda ikinci ən mühüm hakimiyyət orqanı idi və onun rəhbərləri respublikanın ali vəzifəli şəxsləri hesab edilirdi. Xalq Komissarları Şurasının tərkibinə onun sədri, sədrin müavinləri və xalq komissarları daxil idilər. Araşdırılan dövrdə hökumətin tərkibi bəzi dəyişikliklərə məruz qalmışdı, bir sıra yeni komissarlıqlar yaradılmış, digərləri isə ləğv edilmişdir. Belə ki, 1922-ci ildə Azərbaycan SSR ZSFSR və SSRİ tərkibinə daxil edildikdən və formal müstəqilliyini itirdikdən sonra hökumətin tərkibində hərbi-donanma, xarici işlər, xarici ticarət komissarları vəzifələri ləğv edilmişdir. XKŞ sədri və onun bəzi müavinləri Azərbaycan Kommunist partiyasının Mərkəzi Komitəsinin bürosunun üzvü və ya üzvlüyə namizədlər idilər. Xalq Komissarları Şurası və onun aparatı AK(b)P Mərkəzi Komitəsinin aparatının, onun müvafiq katiblərinin və şöbə rəhbərlərinin daimi nəzarəti altında işləyirdi. Həmin katiblər və rəhbərlər Xalq Komissarları Şurasının strukturunda müvafiq vəzifəli şəxslərə münasibətdə ali hakimiyyət rolunda çıxış edirdilər.

Konstitusiyaya əsasən Xalq Komissarları Şurası öz fəaliyyətində əvvəl ÜmumAzərbaycan Sovetləri qurultayı, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi, 1938-ci ildən isə Ali Sovet qarşısında məsuliyyət daşıyırdı. Nəriman Nərimanovun 1922-ci ildə əvvəl Zaqafqaziya İttifaq Şurasının, sonra isə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri vəzifəsinə seçilməsi ilə əlaqədar, Azərbaycan SSR Xalq Komissarları Şurası sədri vəzifəsinə Q.Musabəyov (aprel 1922 - mart 1930) təyin edilmişdir. Sonralar bu vəzifəyə D.Bünyadzadə (mart 1930-oktyabr 1932), M.C.Bağırov (oktyabr 1932-dekabr 1933; aprel-iyul 1953), H.Rəhmanov (dekabr 1933-oktyabr 1937) T.Quliyev (oktyabr 1937-aprel 1953) təyin edilmişdilər. Hökumətin sədrindən fərqli olaraq, onun müavinlərinin tərkibi daimi deyildi, lakin əsasən azərbaycanlılardan ibarət idi.[29]

---

[29] Azərbaycan SSR dövlət qurumlarının milli tərkibi (Bakı: 1929-cu ilin apreli) //ARPİİİSSA, Fond № 1, siyahı № 77, iş № 65, vərəq 45; Azərbaycan SSR xalq komissarlarının və respublikanın rəhbər işçilərinin milli tərkibi (Bakı: dekabr 1939) // ARPİİİSSA, Fond № 1, siyahı № 22, iş № 412, vərəq 103.

XKŞ aparatı aşağıdakı şöbələrdən ibarət idi: katiblik, hüquq və iqtisadi, ümumi, maliyyə, informasiya, komendant, kuryer şöbələri. Sonrakı illərdə XKŞ aparatı daim təkmilləşmiş və dəyişikliklərə məruz qalmışdır. XKŞ aparatının işçilərinin milli tərkibinə gəldikdə, orada ənənəvi olaraq türklər üstünlük təşkil edirdi. 1 aprel 1929-cu ilə olan məlumata görə aparatın 41 əməkdaşından 24-ü türk idi.[30]

Beləliklə, 1920-ci ildən sonra Azərbaycanın ali dövlət hakimiyyəti orqanları faktiki olaraq partiya aparatının tam nəzarəti altında formalaşmışdılar. Hakimiyyətin qanunverici və icraedici orqanlarının bütün pillələrində eyni partiyanın üzvləri oturmuşdu ki, bu da həmin partiyanı dövlət hakimiyyətinin əsas struktur elementinə çevirmişdi. Bu "partiya dövləti" mexanizminin yaradılmasına gətirib çıxartmışdı ki, orada qanunverici, sərəncamverici və nəzarətedici funksiyalar partiya aparatına, icraedici isə ali dövlət hakimiyyəti orqanlarına məxsus idi.

**"Kommunist partiyası Azərbaycan SSR-də hakimiyyətin əsas struktur elementi kimi (XX əsrin 20-30-cu illəri)"** adlı ikinci fəsil üç yarımfəsildən ibarətdir. **"Azərbaycan Kommunust partiyası: təşkilati forması, strukturu və rəhbərliyi"** adlanan birinci yarımfəsildə qeyd olunur ki, 1920-ci ilin fevralında yaradılmış Azərbaycan Kommunist partiyası əslində bütün fəaliyyəti dövründə müstəqil bir partiya olmamışdır. Özünun proqramı və nizamnaməsi olmadığı üçün o, tamamilə RK(b)P, sonra isə ÜK(b)P və Sovet İttifaqı KP-nin proqram və nizamnaməsi əsasında fəaliyyət göstərirdi. Təşkilati baxımdan AK(b)P-nın hüquqları, vəzifələri və səlahiyyətləri RK(b)P-nın nizamnaməsinə əsasən regional təşkilat kimi müəyyən edilmişdir. Partiya həyatının əsas məsələləri qurultaylarda, konfranslarda, plenumlarda və AK(b)P-nın bürosunda həll edilirdi. Azərbaycan Kommunist Partiyasının ali orqanı onun qurultayı idi. 1920-ci ildən 1940-cı ilədək partiyanın 16 qurultay keçirilmişdir. XIII qurultaydan (1937-ci ilin iyun ayından) sonra partiya öz abbreviaturasını dəyişdirərək Azərbaycan KP (b) adlanmağa başladı.

---

[30] Azərbaycan SSR dövlət qurumlarının milli tərkibi (Bakı: 1929-cu ilin apreli) //ARPİİİSSA, Fond № 1, siyahı № 77, iş № 65, vərəq 45.

Qurultaylarda seçilən partiyanın Mərkəzi Komitəsinin üzvləri tərkibinə sovet və təsərrüfat rəhbərləri, fəhlələr, kolxozçular və ziyalılar daxil idi. Bütün qəza, sonralar isə rayon partiya təşkilatları birbaşa Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə tabe idilər. AK(b)P-nın Siyasi Bürosu respublikanın gündəlik həyatını idarə edir, partiya aparatının onurğa sütunu hesab olunurdu. Onun tərkibi Mərkəzi Komitənin plenumu tərəfindən müəyyənləşdirilirdi və dəyişilirdi. Mərkəzi Komitənin Rəyasət heyətinin, sonralar isə Bürosunun tərkibinə Mərkəzi Komitənin katibləri, Mərkəzi İcraiyyə Komitəsinin (sonralar Ali Sovetin) sədri, Xalq Komissarları Şurasının sədri, onun müavinləri, Bakı partiya komitəsinin ikinci katibi, BSİ - XDİK sədri daxil idi. Rəyasət heyətinin- Büronun qəbul etdiyi qərarlar bütün səviyyələrdə qanunvericilik və icraedici hakimiyyət orqanları, həmkarlar ittifaqları, komsomol və təsərrüfat təşkilatları tərəfindən icra olunması üçün məcburi sayılırdı.

Azərbaycan Kommunist partiyası aşağı (rayon, şəhər) və ən yüksək səviyyəli – (Mərkəzi Komitə) partiya komitələrindən ibarət idi. Tərkibi baxımından "partiya komitəsi" ifadəsi ikili məna daşıyırdı. Bu komitənin üzvləri müvafiq partiya konfranslarında və qurultaylarında seçilirdi. Lakin bu komitənin üzvləri onun daimi işçiləri kimi fəaliyyət göstərmirdilər. Onların əksəriyyəti digər təşkilatlarda işləyirdilər və partiya komitəsinin üzvləri kimi yalnız onun vaxtaşırı cağrılan iclaslarında (plenumlarında) iştirak edirdilər. Partiya komitəsinin daimi üzvlərinin tərkibinə mərkəzi, rayon, şəhər komitələrinin katibləri və onun strukturuna daxil olan şöbələrin əməkdaşları daxil idi. Beləliklə, ikinci mənada "partiya komitəsi" termini daimi fəaliyyət göstərən bir qurum mənası bildirirdi.

Mərkəzi Komitənin və yerli partiya komitələrinin aparatı funksional (1920-1934) və ya istehsal-sahə (1934-1939) prinsipi əsasında qurulmuş və bu səbəbdən hökumətin strukturunu təkrarlayırdı. Onların arasında uçot-təyinat, təşkilat-təlimat, kadr, kənd təsərrüfatı, sənaye, nəqliyyat və digər şöbələr seçilirdi. Şöbə müdirləri əsasən Mərkəzi Komitənin katiblərinin dəyişilməsi ilə dəyişirdi. Tədqiq olunan dövrdə Mərkəzi Komitənin katibləri və şöbə müdirləri arasında xeyli sayda milli azlıqların (ruslar,ermənilər) nümayəndələri vardı. Bu

şəxslər respublikanın ən yüksək partiya nomenklaturasına daxil idilər. Mərkəzi Komitənin katibləri və şöbə müdirləri respublikanın sosial-iqtisadi inkişafının müəyyən sahələri üzrə partiya rəhbərliyini həyata keçirir, böyük həcmdə hakimiyyətə malik idilər və insanların taleyinin həllində böyük rol oynayırdılar. AK (b) P mərkəzi aparatında müəyyən edilmiş nomenklatura vəzifələrinə təyinat Mərkəzi Komitə tərəfindən həyata keçirilirdi.

1920-ci illərin əvvəllərindən başlayaraq kadrların qeydiyyatı və hərtərəfli öyrənilməsi sistemi formalaşmağa başlayır. Kadrlarla iş üzrə vahid sistemin yaradılması, onların seçilməsi və irəli çəkilməsi işini daha planlı və məqsədyönlü təşkil olunması üçün şərait yaratmışdı. Əslində, bu qayda formal olaraq seçkili sayılan vəzifələrə də şamil edilirdi. Nomenklatura vəzifələrinin artması idarəetmə aparatının tədricən şişməsinə və strukturunun şaxələnməsinə gətirib çıxartmışdı. Bu isə, öz növbəsində kadr təminatı işində çətinliklər yaradırdı.

Tədqiq olunan və sonrakı dövrlərdə Bakı partiya təkilatı üzvlərinin sayına görə respublikanın ən iri partiya təşkilatı idi. Müharibədən əvvəl Bakı partiya təşkilatı respublikada ən böyük proletar təbəqisinə malik idi. Təşkilatın milli tərkibi əsasən qeyri-azərbaycanlılardan ibarət idi. Bakı şəhərinin əhalisinin milli tərkibi (1939-cu il əhalinin siyahıyaalınmasına görə azərbaycanlılar Bakıda əhalinin 27,4%-ni, ruslar 43,6%-ni, ermənilər 15%-ni və digərləri 14%-ni təşkil edirdilər[31]), 1920-ci-30-cu illərin əvvəllərində xüsusilə RSFSR-dan əhalinin miqrasiyası, rus dilinin xüsusilə mərkəzi partiya aparatında və dövlət idarələrində aparıcı mövqe tutması, qeyri-azərbaycanlıların yüksək təhsil və peşəkarlıq səviyyəsi, siyasi fəallığı onların müharibədən əvvəlki dövrdə Bakı partiya təşkilatında sayca üstünlüyünü təmin etmişdir.

**“Partiya rəhbərliyində kadr dəyişiklikləri”** adlı ikinci yarımfəsildə qeyd olunur ki, sovetləşmənin ilk illərindən başlayaraq partiya iyerarxiyasında aparıcı rolu MK katibləri tuturdu ki, onlar da ilk dövrdə əsasən Mərkəzi Komitə aparatının işinin təşkili funksiyasını yerinə yetirirdilər. Katiblərin rolunun artması dövlət idarəçiliyində

---

[31] Очерки истории рабочего класса Азербайджанской ССР, с. 236.

partiya aparatının mövqeyinin güclənməsi və kadr məsələlərinin həllinin onun əlində cəmləşməsi ilə bağlı idi. 1920-ci illərin sonuna qədər AK (b) P Mərkəzi Komitəsinin katibləri arasında dəqiq iyerarxiya yox idi və onların dəqiq sayını müəyyən etmək çətin idi. 1929-cu ildə rəsmi olaraq birinci, ikinci və üçüncü katib vəzifələri təsis edildi. Bundan sonra Mərkəzi Komitənin birinci katibi eyni zamanda Bakı partiya komitəsinin birinci katibi təyin edilirdi. Beləliklə, Mərkəzi Komitənin birinci katibinin səlahiyyətləri əhəmiyyətli dərəcədə artmışdı və o, partiya sıralarında birliyin möhkəmlənməsini təmin etməli idi. 1929-cu ildə BK-nin birinci katibi vəzifəsi təsis edildikdən sonra ikinci və üçüncü katib vəzifələri də təsdiqlənmişdi. 1930-cu illərdə idarəetmə sisteminin bürokratlaşması, partiya aparatı tərəfindən həll edilən məsələlərin həcminin həddindən artıq artması ilə əlaqədar MK katiblərinin sayı artmışdı (1931-ci ildən 4 katib, 1939-cu ildən isə 5 katib).

1933-cü ildə M.C.Bağırov AK(b)P Mərkəzi Komitəsinin birinci katibi (o bu vəzifədə 1953-cü ilədək qalmışdır) vəzifəsinə təyin olunanadək AK(b)P-nin birinci katiblərinin rotasiyası daha intensiv gedirdi. 1933-cü ilə qədər Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin katiblərinin tez-tez dəyişilməsinin başlıca səbəbləri partiyanın ali rəhbərliyində mövcud olan intriqa və didişmələr, kadr siyasətində, kənd təsərrüfatı və sənayenin inkişafı istiqamətində buraxılan səhvlər idi.

**“Azərbaycan Kommunist partiyası partiya təmizləmələri və “Böyük terror” illərində”** adlı üçüncü yarımfəsildə qeyd olunur ki, mərkəzi partiya rəhbərliyi tərəfindən milli partiya nomenklaturasının siyasi etibarlılığını təmin etmək, onu sosializmdən başqa digər ideologiyaların təsirindən qorumaq üçün həyata keçirilən mürəkkəb inzibati və siyasi tədbirlər içərisində partiya təmizləmələri xüsusi yer tuturdu. 1921, 1929-1930 və 1933-1935-ci illərdə keçirilən partiya təmizləmələri və 1936-cı ildə partiya sənədlərinin dəyişilməsi vaxtı AK(b)P-da kommunistlərin sayı xeyli azalmışdır. Təmizləmələr 1937-1938-ci illərdə keçirilmiş kütləvi repressiyaların müjdəçisi olmuşdu. Əgər 1920-ci illər-30-cu illərin birinci yarısında keçirilən təmizləmələr daha çox sıravi kommunistlərə, hakimiyyətin aşağı pillələrində vəzifə tutan şəxslərə aid idi, 1937-1938-ci illərdəki repressiyalar əsasən

rəhbər kadrlara qarşı yönəlmişdir. Ümumilikdə repressiya məruz qalanlar arasında Azərbaycan KP-nin 52 rayon katibi, 34 rayon icraiyyə komitəsinin sədri, 7 müəssisə və mədən rəhbəri, 20 xalq komissarı və onların müavinləri, 3 şöbə müdiri vardı.[32]

"Böyük terror" illərində partiyanın yaşlı nəsli məhv edildikdən sonra Stalin kadr siyasəti yeni sistemin genetik məhsulu hesab olunan cavan kommunistlərə üstünlük vermişdir. 1937-ci il iyun ayının 1-dən 1938-ci il iyun ayının 1-dək 10739 nəfər Azərbaycanda rəhbər vəzifəyə, o cümlədən 2462 nəfər partiya vəzifəsinə irəli çəkilmişdi.[33] Ümumiyyətlə, yeni rəhbər kadrların milli tərkibi aşağıdakı kimi idi: azərbaycanlılar - 63,6%, ruslar - 9,6%, ermənilər - 15%, digərləri - 11,8%.[34] Azərbaycan kommunistlərinin yeni Stalin nəsli inqilabi hərəkatın iştirakçıları, Azərbaycanda sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə aparanlar sırasına aid deyildilər. Bu şəxslərin partiyaya qəbul olunması və rəhbər vəzifələrdə yüksəlməsi dövrü əsasən 1930-cu illərin ikinci yarısına təsəddüf edirdi.

1939-cu ilin fevral ayına olan məlumata görə vilayət, şəhər və rayon partiya komitələrinin birinci katibləri arasında inqilaba qədər partiya staji olan yox idi. Yalnız birinci katiblər arasında 1918-1920-ci illərdən partiya stajı olan 5 nəfər (88 birinci katibdən yalnız 5,7%-i) var idi. Qalanlarının partiya stajı 1920-ci ildə Azərbaycanın sovetləşməsindən sonra hesablanırdı.[35]

Dissertasiyanın **"Azərbaycan Kommunist partiyasında kadr siyasətinin keyfiyyət parametrləri (XX əsrin 20-30-cu illəri)"** adlı üçüncü fəsli üç yarımfəsildən ibarətdir. **"Partiya kadrlarının sosial və milli tərkibi"** adlanan birinci yarımfəsildə qeyd edilir ki, partiyanın sosial və milli tərkibinin tənzimlənməsi məsələsi ənənəvi olaraq respublikanın partiya rəhbərliyinin diqqət mərkəzində olmuşdu.

---

[32] "Əksinqilabi millətçi təşkilat"nın üzvlərinin siyahısı (Bakı: 1939-cu il ) // ARPİİİSSA, Fond № 1, siyahı № 22, iş № 296, vərəq 17.

[33] Очерки истории Коммунистической партии Азербайджана. Баку: 1963, с. 549.

[34] Очерки истории Коммунистической партии Азербайджана, с. 543.

[35] Azərbaycan SSR KP (b) rayon, şəhər və vilayət komitələri katiblərinin milli və sosial tərkibi haqqında statistik məlumatlar (Bakı:1939-cu il)// ARPİİİSSA, Fond № 1, siyahı № 22, iş № 546, vərəq 33.

Kommunist partiyası həmişə vurğulayırdı ki o, ilk növbədə fəhlə və kolxozçu-kəndlilərin partiyasıdır. Buna görə də dövlət idarəetmə aparatına bu kateqoriyadan olan kadrların irəli çəkilməsi məqsədyönlü şəkildə həyata keçirilirdi. Partiya aparatının fəhlə və kəndlilərlə doldurulması yerlərdən gələn hesabatlar əsasında təhlil və tənzim edilir, bu işdə səhvə yol verən təşkilatlar ciddi şəkildə tənqid edilirdi.

1925-1933-cü illərdə Azərbaycanın partiya təşkilatında peşəkar fəhlələr kommunistlər arasında aparıcı yer tuturdular. Bu da neft sənayesinin inkişafı, yeni sənaye müəssisələrinin açılması və ölkə rəhbərliyinin sistemli şəkildə partiyanın sosial tərkibində sənaye fəhlələrinin mütləq üstünlük təşkil etməsi çağırışları ilə bağlı idi.

Lakin 1934-cü ildən başlayaraq Azərbaycanın Kommunist partiyasında peşəsi üzrə fəhlələrin xüsusi çəkisi qulluqçu və ziyalılara nisbətdə azalmışdır. Nəticədə 1 yanvar 1940-cı ilə olan vəziyyətə görə, partiya üzvləri arasında peşəsi üzrə fəhlələrin xüsusi çəkisi 21,9% təşkil etmişdir.[36] Partiya üzvləri arasında fəhlələrin xüsusi çəkisinin azalması o demək deyildi ki, respublika rəhbərliyi bu sahədə nəzarəti itirmiş və partiya sıralarına fəhlələrin qəbulu azalmışdır. Sürət eyni qalırdı. Lakin bu prosesin statistik hesabatlarda əksini tapmayan obyektiv səbəbləri vardı. Birincisi, partiya orqanları gələcək partiya üzvünün "sosial vəziyyətini" müəyyənləşdirərkən namizədin partiya sıralarına daxil olmazdan əvvəl peşəsini əsas götürürdülər. Və bir çox hallarda partiyaya daxil olana qədər namizədin əsas işi ilə partiyaya daxil olduqdan sonraki işi üst-üstə düşmürdü. Fəhlə və ya kəndli hakimiyyətin müəyyən bir pilləsinə yüksələndən sonra peşə fəaliyyətinə görə tədricən dövlət aparatında qulluqçu vəzifəsini tuturdu. Bu kateqoriyadan olan işçilər 1930-cu illərin ikinci yarısından etibarən dövlət aparatında üstünlük təşkil edirdilər. Digər tərəfdən, bir çox fəhlələr partiyaya daxil olduqdan sonra biliklərində olan boşluqları doldurmaq və tutduqları yüksək vəzifələrini qorumaq üçün mülki və partiya təhsili müəssisələrinə üz tuturdular və onları bitirərək yeni “proletar ziyalısı” sırasına daxil olurdular. Partiya sıralarında peşəsi üzrə fəhlələrin xüsusi çəkisinin azalmasının digər səbəbləri arasında

[36] Коммунистическая партия Азербайджана в цифрах, с. 30-31.

1929-1930-cu, 1933-1935-ci illərdə həyata keçirilən partiya təmizləmələri, kollektivləşdirmə dövründə fəhlələrin kəndə işləmək üçün səfərbər olunması, 1936-cı ildə partiya biletlərinin dəyişdirilməsi və, nəhayət, 1937-1938-ci illərin repressiyalarını qeyd etmək lazımdır.

Müharibədən əvvəl partiyada peşəsi üzrə kəndlilərin ən yüksək faizi - 28,2% 1924-ci ildə qeydə alınmışdır. Lakin 1920-ci illərin ortalarından başlayaraq, peşəsi üzrə kəndlilərin xüsusi çəkisi azalmağa doğru gedərək, 1930-cu ildə böhran nöqtəsinə çatmışdı - 7,9%.[37] Bu prosesdə RK(b)P-nin XII qurultayının (1923) sənaye fəhlələrinin partiyanın tərkibində mütləq artımına nail olamaq xəttini götürməsi, eyni zamanda bütün digər sosial elementlərə, o cümlədən peşəsi üzrə kəndlilərə qoyulan məhdudiyyətlər böyük rol oynamışdır. Lakin 1930-cu illərin əvvəllərində kəndlilərin böyük əksəriyyətinin kolxozlara cəlb olunması və burada ilkin partiya təşkilatlarının yaradılması onların partiyada xüsusi çəkisini getdikcə artmasına gətirib çıxartmışdı. Respublikanın partiya təşkilatında 1933-cü ildən başlayaraq peşəsi üzrə kəndlilərin xüsusi çəkisində müşahidə olunan sürətli artım, 1935-ci ildə zirvə nöqtəsinə çatmışdı - 27,3%. Bununla belə, 1936-cı ildə keçirilən partiya biletlərinin dəyişdirilməsi kampaniyasının iştirakçıları və 1937-1938-ci illərin siyasi repressiyalarının qurbanları içərisində minlərlə partiya üzvü olan sıravi kolxozçular da vardı. Nəticədə, 1 yanvar 1940-cı ildə kolxozçu kəndlilərin partiya sıralarında xüsusi çəkisi 24,9%-ə enmişdi.[38]

Fəhlələrlə yanaşı partiyaya qəbul olunan kəndlilər də bundan özlərinin maddi rifahının və sosial statusunun artırılması üçün vasitə kimi istifadə edirdilər. Respublikanın zəhmətkeş əhalisinin yarısından çoxunu kolxozçular təşkil etməsinə baxmayaraq, Azərbaycanın kənd və şəhər əhalisinin təhsil səviyyəsində olan fərqlər fəhlələrlə müqayisədə kəndlilərin partiyanın sosial tərkibində ənənəvi olaraq xüsusi çəkisinin aşağı olmasını müəyyən etmişdir.

1920-ci illərin əvvəllərində rəsmi məlumatlara görə, hakimiyyət və idarəetmə aparatı proletar tərkibli olsa da, əslində onun tərkibində

[37] Коммунистическая партия Азербайджана в цифрах, с. 26, 30.
[38] Коммунистическая партия Азербайджана в цифрах, с. 31.

qeyri-proletar təbəqənin nümayəndələri-qulluqçular üstünlük təşkil edirdilər. Bunlar əsasən ziyalılar idi. Sovet hakimiyyətinin ilk illərində ixtisaslı kadrların azlığı bolşevik hakimiyyətini bu təbəqəyə münasibətdə olduqca ehtiyatlı davranmağa məcbur edirdi. Hakimiyyət, bir tərəfdən, köhnə mütəxəssislərin təcrübəsindən istifadə edirdi, digər tərəfdən isə bu təbəqəyə qarşı sərt tənzimedici siyasət aparırdı. ÜK (b)P-nin 1920-ci illərin ortalarına aid təlimat sənədlərindən məlum olur ki, partiyanın sosial tərkibini təmizləmələr yolu ilə tənzimləyən bolşeviklər, partiya üzvləri arasında sayı elə də çox olmayan köhnə ziyalılardan və bolşeviklərə yad olan digər siniflərin nümayəndələrindən dövlət idarələrində istifadə etməyə məcbur idilər. Ümid yalnız ona idi ki, fəhlə və kəndlilər içərisindən "qırmızı" mütəxəssislər hazırlandıqca, onlar dövlət aparatında yad elementləri əvəz edəcək. 1934-ci ildən Azərbaycan Kommunist partiyasının üzvləri arasında qulluqçu və ziyalıların xüsusi çəkisi durmadan artmağa başladı və 1 yanvar 1940-ci ildə 53,2%-ə çatdı.[39] Lakin indi bu təbəqənin əhəmiyyətli hissəsini fəhlə və kəndlilər arasından çıxan yeni sovet ziyalıları təşkil edirdi. Bu yeni sovet ziyalıları artıq fərqli xüsusiyyətlərə malik idilər.

1920-ci illərin əvvəllərində Azərbaycan Kommunist partiyası milli tərkibinə görə ən çoxmillətli, üzvlərinin sayına görə isə Gürcüstan KP-dan sonra Cənubi Qafqazda ikinci partiya təşkilatı idi. 1922-ci ilin məlumatına görə, AK(b)P-nin sıralarında 40 millətin nümayəndəsi vardı.[40] Lakin belə rəngarənq etnik palitraya baxmayaraq, partiyanın milli tərkibi əsasən respublikada yaşayan üç əsas millətin nümayəndələrindən ibarət idi: türklər, ermənilər və ruslar. Bu tərkib respublika əhalisinin milli tərkibini özündə tam əks etdirirdi. Ötən əsrin 20-30-cu illərində ermənilər və ruslar Azərbaycan Kommunist partiyasının üzvlərinin təxminən yarısını təşkil edirdilər. Rusların və ermənilərin inqilabı sosialist hərəkatında və Azərbaycanda sovet hakimiyyətinin qurulmasında fəal iştirakı Azərbaycan Kommunist partiyasının milli tərkibinin formalaşmasında həlledici rol oynamışdır.

---

[39] Коммунистическая партия Азербайджана в цифрах, с. 31.
[40] Коммунистическая партия Азербайджана в цифрах, с. 14.

Eyni zamanda, müharibəyə qədərki dövrdə, respublika kommunistləri içərisində azərbaycanlıların xüsusi çəkisi heç yarıya çatmırdı. 1 yanvar 1940-cı ilə olan vəziyyətə görə, partiya təşkilatının milli tərkibində azərbaycanlıların xüsusi çəkisi (47,8%)[41] respublika əhalisinin tərkibində olan çəkisindən (58,4%)[42] az idi.

Arxiv sənədlərinin təhlili onu göstərir ki, partiyanın milli tərkibində ermənilərin və rusların yüksək çəkisi əhalinin çoxmillətli olduğu yerlərdə daha çox müşahidə olunurdu. Belə ki, 1924-ci il iyulun 1-nə Bakı partiya təşkilatında ermənilərin xüsusi çəkisi 14,7%, Gəncədə - 27,6%, Naxçıvanda - 14% təşkil etmişdir. DQMV partiya təşkilatında ermənilər partiya üzvlərinin mütləq əksəriyyətini təşkil edirdilər - 94,2%.[43] 1920-ci illərdə partiya tərkibində rusların xüsusi çəkisinin artması onun sıralarına fəhlələrin geniş cəlb olunması və bu dövrdə Rusiyanın müxtəlif bölgələrindən əhalinin Azərbaycana köçürülməsi ilə bağlı idi. 1926-1939-cu illər ərzində Azərbaycan SSR-də rus əhalisinin sayı 2,4 dəfə artmışdır (1926-cı ildə 220,6 min nəfərdən 1939-cu ildə 528,3 min nəfərədək).[44] Bu əhalinin əksəriyyəti Bakıda, xüsusilə onun mərkəzi və sənaye rayonunda yerləşmişdi. Nəticədə paytaxtda türklər şəhər əhalisinin yalnız üçdə birini təşkil edirdilər. 1933-cü ilə qədər partiya üzvləri arasında sayca ruslar türklərdən sonra ikinci yerdə olduğu halda, sonrakı dövrdə həmin yeri ermənilər tutmuşdular.

Beləliklə, əhalinin sosial strukturunun inkişaf xüsusiyyətləri, partiya üzvlərinin demək olar ki, yarısının Bakı partiya təşkilatı üzvlərindən ibarət olması, onların arasında rus və erməni kommunistlərinin siyasi fəallığı, partiya kadrlarının təhsil səviyyəsi, dövlət idarələrində rus dilinin aparıcı rolu, əhalinin tərkibində demoqrafik dəyişikliklər Azərbaycan Kommunist partiyasının milli tərkibinin formalaşmasına təsir edən əsas amillər idi.

**“Partiya kadrlarının təhsil səviyyəsi və xalq təsərrüfatının müxtəlif sahələrində yerləşdirilməsi”** adlı ikinci yarımfəsildə qeyd

---

[41] Коммунистическая партия Азербайджана в цифрах, с. 44.

[42] Всесоюзная перепись населения 1939 года, с. 200.

[43] AK (b) P Mərkəzi Komitəsinin VI çağırış Plenumunun materialları (15 sentyabr 1924) // ARPİİİSSA, Fond № 1, siyahı № 5, iş № 46, vərəq 31.

[44] Азербайджанцы: Историко-этнографический очерк . Баку: 1998, с. 49-50.

olunur ki, partiya kadrlarının formalaşmasına təsir edən əsas amillərdən biri onların təhsil səviyyəsi olmuşdur. Rəhbər vəzifələrə savadlı kadrların irəli çəkilməsi bir neçə məqsəd güdürdü: birincisi, rəhbərliyin peşəkarlığını artırırdı; ikincisi, hakimiyyətdə olan kadrların cəmiyyətin ən savadlı hissəsi olduğu görüntüsünü yaradırdı. 1920-ci illərin əvvəllərində partiya üzvləri və üzvlüyə namizədlərin yalnız yarısının məktəb səviyyəsində təhsili vardı, üçdə birinin isə ümumiyyətlə təhsili yox idi. Bu sosial qüsur partiya üzvlərinin dünyagörüşünün və davranışının formalaşmasında həlledici rol oynayırdı. Tədqiq olunan dövrdə hətta Mərkəzi Komitənin katibləri içərisində ancaq bəziləri ali təhsil müəssisələrini bitirməyə nail olmuşdular.

1930-cu illərin sonunda vəziyyət bir qədər dəyişdi. Belə ki, 1940-cı il yanvarın 1-nə Azərbaycan Kommunist Partiyasının 79.032 üzvündən və üzvlüyə namizədlərdən 3593-nün (4,5%) ali, 1243-nün (1,6%) natamam ali, 10157-nin (12,9%) orta, 11622-nin (14,7%) natamam orta, 27869-nun ( 35,2%) ibtidai təhsili vardı, 24319-nun (30.7%) isə ibtidai təhsili yox idi.[45] Kommunistlərin dörddə üçü - 53591 nəfəri istehsal sahəsində işləyirdi. Bunlardan 18237 nəfəri sənayedə, 22582 nəfəri isə kənd təsərrüfatında çalışırdı.[46] Beləliklə, 1930-cu illərin sonuna qədər kommunistlərin tərkibində kənd təsərrüfatında işləyənlər aparıcı mövqeyə malik idilər. Sənayedə məşğul olan kommunistlərin yarısı - 9600 nəfəri neft sənayesində çalışırdı.[47] Kənd təsərrüfatında çalışan kommunistlərin əksəriyyəti - 19690 nəfəri kolxozda işləyirdi.[48] 19022 kommunist qeyri-istehsal sahəsində çalışırdı.[49] Onların arasında elmlər namizədi və elmlər doktoru elmi dərəcəsi adını daşıyan mütəxəssislər azlıq təşkil edirdi. Lakin partiya tərkibində bu təbəqənin xüsusi çəkisi daim artırdı və müharibədən sonrakı dövrdə yüksək səviyyəyə çatmışdır.

**“Partiya-siyasi təhsil sistemində kadr hazırlığı”** adlı üçüncü yarımfəsildə göstərildiyi kimi, Azərbaycanın sovetləşməsindən sonra

---

[45] Коммунистическая партия Азербайджана в цифрах, с. 35.
[46] Коммунистическая партия Азербайджана в цифрах, с. 87.
[47] Коммунистическая партия Азербайджана в цифрах, с. 97.
[48] Коммунистическая партия Азербайджана в цифрах, с. 103.
[49] Коммунистическая партия Азербайджана в цифрах, с. 89.

AK(b)P sıralarında başlayan sürətli artım siyasi təhsilin genişlənməsini zəruri etmişdir. Sovet sistemində kadrların hazırlığı müxtəlif növ partiya məktəbləri, kommunist universitetləri, təlim kursları çərçivəsində həyata keçirilirdi. Bu təhsil müəssisələri qarşısında duran mühüm vəzifə ideoloji cəhətdən hazırlıqlı rəhbər kadrları yetişdirmək idi.

AK(b)P Mərkəzi Komitəsinin 23 sentyabr 1920-ci il tarixli qərarı ilə Bakıda və respublikanın rayonlarında partiya məktəbləri təşkil edilmişdir.[50] AK(b)P Mərkəzi Komitəsi 30 noyabr 1921-ci ildə Bakıda Mərkəzi Türk sovet partiya məktəbinin açılması haqqında qərar qəbul etmişdir. 1921-ci ildə AK(b)P Bakı Komitəsinin nəzdində türk, rus və erməni bölmələrindən ibarət olan S.Şaumyan adına Ali Partiya Məktəbi yaradıldı.[51] Bu məktəblərin əsas vəzifəsi fəhlə və kəndlilər içərisindən partiya-sovet, həmkarlar və kooperativ təşkilatlarında işləmək üçün kadrlar hazırlamaq idi. Məktəblər iki kursdan ibarət idi: hazırlıq və əsas. Hazırlıq kursları əsas kurs üçün, əsas kurslar isə qəzalar üçün rəhbər kadrlar hazırlayırdı. 1934/1935-ci tədris ilində Azərbaycan SSR-də 16 sovet partiya məktəbi (biri Bakıda, qalanları isə rayonlarda) fəaliyyət göstərirdi.[52]

Müdavimlərin sosial və partiya mənsubiyyəti onların seçilməsinin əsas meyarı idi, bu isə partiya məktəblərini sovet cəmiyyətinin müəyyən sosial-siyasi təbəqələrinə yönəlmiş "qapalı" sistem kimi təsnif edirdi. Partiya kadrlarının əsas mənbəyi olan fəhlələr müdavimlərin əksər hissəsini təşkil edirdi. Sovet partiya məktəblərinin müdavimləri arasında respublikanın əsas milli azlıqları da təmsil olunmuşdu. Yerli əhalidən kadrların hazırlanması partiya məktəblərinin fəaliyyətinin əsas istiqamətini təşkil edirdi.

1930-cu illərin əvvəllərindən başlayaraq Azərbaycanda Kommunist universitetləri yaradılır. 1930-cu ildə partiya işçilərinin nəzəri cəhətdən yenidən hazırlanması məqsədilə Bakıda acılmış Azərbaycan Kommunist Universitetinin axşam şöbəsi 1932-ci ildən

---

[50] Очерки истории Коммунистической партии Азербайджана, с. 339.

[51] Коммунистическая партия Азербайджана в цифрах, с. 368.

[52] 1934/1935 tədris ilində Sovet partiya məktəblərinin buraxılışının nəticələri haqqında A.Aqrbanın M.C.Bağırova məruzəsi (Bakı: 1934) // ARPİİİSSA, Fond № 1, siyahı № 17, iş № 596, vərəq 114.

Azərbaycan Ali Kommunist Kənd Təsərrüfatı Məktəbinə (AAKKTM) çevrilmişdir. 1932-ci il aprelin 11-də AK(b)P MK bürosunun qərarı ilə Marksizm-Leninizm İnstitutunun Azərbaycan filialı (AzMLİ) respublikada ali partiya təhsili müəssisəsi kimi təsis edilmişdi. Bu təhsil müəssisələrində "qırmızı" mütəxəssislər hazırlanırdı.

Lakin xalq təsərrüfatının müxtəlif sahələri üçün mütəxəssislər hazırlayan ali təhsil müəssisələri şəbəkəsinin genişlənməsi nəticəsində diplomlu partiya üzvlərinin sayı artmışdır. Buna görə 1930-cu illərin ikinci yarısından başlayaraq kommunist universitetləri sistemi tədricən ləğv olundu.

Sovet partiya məktəblərində, kommunist universitetlərində cəmiyyətin aşağı təbəqələrindən olan çoxlu sayda rəhbər kadrlar yetişmişdi. Onların əksəriyyəti sonralar ali partiya və sovet vəzifəlrində işləmişdi.

**"Azərbaycan SSR-də sənaye və kənd təsərrüfatı üçün kadrların hazırlanmasının əsas forma və istiqamətləri (XX əsrin 20-30-cu illəri)"** adlı dördüncü fəsil iki yarımfəsildən ibarətdir. **"Sənaye üçün mühəndis-texniki və fəhlə kadrların hazırlanması"** adlı birinci yarımfəsildə qeyd edilir ki, XX əsrin 20-ci illərinin ikinci yarısından etibarən Sovet İttifaqında həyata keçirilən genişmiqyaslı sənayeləşmə xətti və bununla bağlı ixtisaslı mühəndis-texniki kadrlara ehtiyacın kəskin artması dövləti ali təhsil sahəsində siyasətini yenidən nəzərdən keçirməyə məcbur etmişdi.

Tədqiq olunan dövrdə Azərbaycan SSR-nın sənayesi üçün mühəndis-texniki kadrları ali texniki institutlar və sənaye texnikumları hazırlayırdı. 1920-ci illərin sonlarında respublikada yalnız bir texniki ali məktəb - 1920-ci il noyabrın 16-da Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin dekreti ilə yaradılmış M.Əzizbəyov adına Politexnik İnstitutu fəaliyyət göstərirdi. 1921-1929-cu illərdə bu ali məktəb yalnız 71 mühəndis hazırlamışdı.[53] Mütəxəssislərin sayının azlığı əsasən institutda tələbələrin təhsil müddətinin həddən artıq (7-8 il) uzanması ilə bağlı idi.[54]

---

[53] Azərbaycan tarixi. 7 cildlik. Cild 6 (aprel 1920-iyun 1941), s. 330.

[54] Мусаева Т.А. Революция и народное образование в Азербайджане (Очерки истории развития народного образования в Азербайджане. 1920-1940 годы). Баку: 1979, с. 285.

Lakin sürətli sənayeləşmə şəraitində Politexnik institutu sənayenin müxtəlif sahələri üçün diplomlu mühəndislərə artan ehtiyacı ödəyə bilmirdi. Buna görə 1930-cu ildə Azərbaycan Politexnik institutu əsasında M.Əzizbəyov adına Azərbaycan Qırmızı bayraqlı Neft İnstitutu (AQNİ) yaradıldı. Azərbaycan Qırmızı bayraqlı Neft İnstitutu maşınqayırma, energetika və digər sahələr üzrə mühəndis kadrlar hazırladığı üçün ona 10 oktyabr 1934-ci ildə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutu (ASİ) adı verildi. İnstitutun strukturunda müvafiq dəyişikliklər baş verdi və indi o, dar bir sahə üzrə mühəndis-texniki kadrlar hazırlayırdı. 1939/1940-cı dərs ilində ASİ-də təhsil alan 2242 tələbədən 555-i azərbaycanlı, 762-si rus, 454-ü erməni, 330-u yəhudi və 141 nəfər digər millətlərdən idi. Təhsil alanlar arasında 92 azərbaycanlı qadın var idi.[55] Ümumiyyətlə, 1920-1930-cu illər ərzində Politexnik, Neft və sonra isə Sənaye İnstitutu tərəfindən 5000-dən çox mütəxəssis hazırlanmışdı.

Neft sənayesi üçün mühəndis-texniki kadrların hazırlanmasında orta təhsil müəssisələrinin də mühüm rolu olmuşdu. Neft profilli sənaye texnikumları arasında Oktyabr inqilabı adına Bakı Neft Texnikumu, F.Lassal adına Bakı Neft texnikumu, Bakı Neft maşınqayırması texnikumu xüsusi yer tuturdular.

1932/1933-cü tədris ilində respublikada artıq 3 ali sənaye institutu (Neft, İnşaat və Gəncə Toxuculuq insititutları) fəaliyyət göstərirdi və burada ümumilikdə 3267 tələbə təhsil alırdı.[56]

1930-cu illərdə Bakıda S.Kirov adına Sənaye Akademiyası, Təsərrüfat və mühəndis-texniki işçiləri hazırlayan Bakı İnstitutu açılmışdı. 1930-cu illərdə yaradılmış digər xüsusi təyinatlı ali məktəblər kimi, bu təhsil ocaqlarının da əsas problemi tələbələrin təhsili yarımçıq qoyaraq başa çatdırmaması, məzunların az olması idi. Bunun səbəbləri arasında təhsilin istehsalatdan ayrılmadan aparılması, tədris prosesinin ağır olması, tələbələrin maddi və məişət çətinlikləri və s. Buna görə 1941-ci ildə hər iki təhsil müəssisəsi fəaliyyətini dayandırmışdır.

---

[55] Айдамиров Т.С. Подготовка инженерно-технических кадров для нефтяной промышленности Азербайджанской ССР (1938-1945), с. 24.

[56] Очерки истории рабочего класса Азербайджанской ССР, с. 172.

Azərbaycanın xalq təsərrüfatı üçün ixtisaslı mütəxəssislərin hazırlanması işinə Moskva, Leninqrad və İttifaqın digər şəhərlərində yerləşən ali məktəblər də yardım göstərirdi. Lakin 1930-cu illərin ortalarında bu ali məktəblərdə Azərbaycan üçün ayrılan kvotalar azalmışdı. Bunun səbəbi onda idi ki, respublikanın göndərdiyi kadrların hazırlıq səviyyəsi çox aşağı idi və onlar rus dilini zəif bilirdilər. Digər tərəfdən, təhsilini uğurla başa çatdıran məzunlar daha yüksək karyera ümidi ilə geri qayıtmağa tələsmirdilər.[57]

Görülən tədbirlər nəticəsində ikinci beşilliyin sonunda sənayedə mühəndis-texniki kadrların sayı artmışdı. AK(b)P Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırov 1939-ci ilin mart ayında Sov.İK(b)P-nin XVIII qurultayında çıxışı zamanı qeyd etmişdir ki, ikinci beşillik (1933-1937) ərzində Azərbaycan SSR sənayesində mühəndis- texniki işçilərin sayı 9 667 nəfərdən 13200 nəfərə çatmışdır.[58] Lakin diplomlu mühəndis-texniki işçilər arasında azərbaycanlıların xüsusi çəkisi aşağı idi - 20.4%.[59]

Sənaye müəssisələrində mühəndis-texniki kadrlar arasında azərbaycanlıların xüsusi çəkisinin aşağı olması respublika rəhbərliyinin əsas diqqəti qısa müddətdə savadsızlığın aradan qaldırılmasına və ana dilində ümumi ibtidai təhsil sisteminin yaradılmasına yönəlməsi ilə bağlı idi. Bu da öz növbəsində azərbaycanlıların əksəriyyətinin pedaqoji institutlara və texnikumlara oxumağa göndərilməsinə, sonra isə ibtidai və orta məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olmasına gətirib çıxartmışdı. Sonrakı dövrlərdə də humanitar sahədə hazırlanan mütəxəssislər içərisində azərbayacanlılar xüsusi çəkisi yüksək idi. Digər səbəblər arasında texniki ali məktəblərdə tədris prosesinin rus dilində aparılması, texniki fənləri tədris edən professor-müəllim heyəti içərisində azərbaycanlıların azlıq təşkil etməsi, Azərbaycan dilində tədris üçün xüsusi ədəbiyyatın çatışmaması və s. qeyd etmək olar. Yaranmış vakumu isə milli azlıqlar doldururdu.

---

[57] Мартин, Т. Империя положительной деятельности. Нация и национализм в СССР, 1923-1939, с. 239-240.

[58] XVIII съезд Всесоюзной коммунистической партии (б). 10 – 21 марта 1939 г. Стенографический отчет, с. 84.

[59] Всесоюзная перепись населения 1939 года, с. 201.

İxtisaslı fəhlələr hazırlayan fabrik-zavod şagirdlik (FZŞ) məktəbləri və peşə texniki kursları əsasən Bakı şəhərində yerləşirdi və neft sənayesi üçün kadr hazırlayırdı. 1930-cu illərin ikinci yarısından başlayaraq FZŞ sistemində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Ali və orta təhsil, peşə texniki məktəbləri şəbəkəsinin genişlənməsi ilə fabrik-zavod şagirdlik məktəbləri ayrı-ayrı müəssisələr nəzdində sırf bu müəssisənin ehtiyacı üçün ixtisaslı fəhlə hazırlayan peşə məktəblərinə çevrilmişdi.

1920-1930-cu illərdə Azərbaycan SSR-də fəhlə sinifinin coğrafiyasının genişlənməsinə baxmayaraq, 1939-cu il əhalinin siyahıyaalınmasına əsasən sənayedə çalışan fəhlə və qulluqçuların 80%-i Bakıda işləyirdi.[60]

Respublikanın fəhlə kadrlarının əsas hissəsi Azərbaycan neft sənayesində işləyirdi. Bununla yanaşı, neft sənayesinin fəhlələri arasında türklərin xüsusi çəkisi hələdə aşağı səviyyədə qalırdı. 1 avqust 1934-cü ilə olan məlumata görə, neft sənayesində çalışan türk fəhlələrinin xüsusi çəkisi 20,2%, 1939-cu ildə isə 25,2% təşkil edirdi.[61] Burada nəzərə alınmalıdır ki 1920-1930-cu illərin sovet statistikası Cənubi Azərbaycandan kəsbkarlığa gəlmiş və neft sənayesində işləyən türk fəhlələrini “fars” və ya “iranlı” adı ilə yerli türklərdən ayırırdı. Burada əsas meyar onların İran təbəəsi olması idi. Sovet mənbələri əsasən Bakıda yaşamış və işləmiş Cənubi Azərbaycan türklərinin sayı haqqında çox ziddiyyətli məlumatlar verirlər. Tədqiq olunan dövrdə tokar, frezerçi, çilingər, qaynaqçı, poladəridən, tökməçi kimi fəhlə peşələrində azərbaycanlıların xüsusi çəkisi çox cüzi olmuşdur.[62]

1920-1930-cu illərdə rus fəhlələri neft sənayesinin ən ixtisaslı işçilərini təşkil edirdilər. İlk beşillik ərzində respublikanın neft sənayesində rus fəhlələrinin xüsusi çəkisi artmışdır. Belə ki, əgər 1 oktyabr 1926-cı ilə olan məlumata görə neft sənayesində işləyən rus fəhlələrinin xüsusi çəkisi 42,2% idisə, 1 yanvar 1933-cü ilə bu göstərici əhəmiyyətli dərəcədə artaraq 55,7% təşkil etmişdir, yəni

---

[60] Очерки истории рабочего класса Азербайджанской ССР, с. 241.
[61] Очерки истории рабочего класса Азербайджанской ССР, с. 235.
[62] Всесоюзная перепись населения Азербайджана 1939 года, с. 202.

13,5% artmışdır.[63] Neft sənayesində rus fəhlələrinin xüsusi çəkisinin artmasının əsas mənbəyini RSFSR-dən köçüb gələnlər təşkil edirdi. Sovet tarixşünaslığında bu fakt qardaş köməyi kimi şərh edilirdi.[64]

**“Kənd təsərrüfatı kadrlarının kəmiyyət və keyfiyyət parametrləri”** adlı ikinci yarımfəsildə qeyd olunur ki, 1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurularkən o, aqrar ölkə idi və əhalinin dörddə üçü kənddə yaşayırdı. Azərbaycan kəndinin islahatlara ehtiyacı vardı, bolşeviklərin isə bunu həyata keçirmək üçün ixtisaslı kadrları çatmırdı. Buna görə də digər sahələrdə olduğu kimi, köhnə mütəxəssislərin köməyinə müraciət edilməklə yanaşı yenilərinin hazırlığına başlanıldı. Kadr problemlərini həll etmək üçün Azərbaycan Müvəqqəti İnqilab Komitəsi kənd təsərrüfatı sahəsi üzrə mütəxəssislərin səfərbər olunması barədə bir sıra qərarlar qəbul etmişdir.[65]

Sovet hakimiyyətinin ilk illərində Azərbaycan SSR-də kənd təsərrüfatı üçün kadr hazırlayan xüsusi ali məktəb yox idi. 1920-ci ildə Azərbaycan Politexnik institutu nəzdində kənd təsərrüfatı fakültəsi yaradılmışdır. Lakin bu fakültə respublikanın kənd təsərrüfatının peşəkar kadrlara artan ehtiyaclarını ödəmirdi. Buna görə Bakıda və Gəncədə kənd təsərrüfatı üçün qısamüddətli təlim kursları təşkil olunmuşdu. Feldşer-baytar və zootexnik mütəxəssisləri yetişdirən beş kənd təsərrüfatı texnikumu açılmışdır. Lakin bütün bu tədbirlər 1929-1930-cu illərdə başlayan kənd təsərrüfatının kollektivləşdirilməsi siyasəti şəraitində kəndin ixtisaslı kadrlarla ehtiyaclarını tam ödəyə bilmirdi.

12 may 1929-cu ildə Azərbaycan SSR-in Xalq Komissarları Şurası Azərbaycan Politexnik institutunun kənd təsərrüfatı fakültəsi əsasında Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun yaradılması barədə qərar qəbul etdi. 1930-cu ildə həmin institut Bakıdan Gəncəyə köçürüldü. İnstitutun Gəncə şəhərinə köçürülməsinin əsas məqsədi onun kənd təsərrüfatı ilə birbaşa əlaqəsini möhkəmləndirmək idi. 1930-cu ilin əvvəlində Gəncədə eyni zamanda meliorasiya mühəndisliyi, pambıqçılıq və baytar-zootexnik institutları açıldı.

[63] 15 лет азербайджанской нефтяной промышленности (1920-1935). Краткий статистический справочник. Баку-Москва: 1935, с. 76.
[64] Очерки истории рабочего класса Азербайджанской ССР, с. 158.
[65] Декреты Азревкома (1920-1921), с. 74-75, 80-82, 90-91, 309-310, 318-319.

1933-ci ildə onlar Azərbaycan Kənd Təsərrüfatı institutu ilə birləşdirildi. Müharibədən əvvəl qısamüddətli fəaliyyəti dövründə Azərbaycan Kənd Təsərrüfatı institutu kənd təsərrüfatının müxtəlif sahələri üçün kifayət qədər kadr hazırladı. 1939-cu ilin məlumatına görə diplomlu kənd təsərrüfatı mütəxəssisləri arasında azərbaycanlılar belə təmsil olunmuşdular: aqronomlar - 61,3%, baytarlar - 47,4%, kənd təsərrüfatı texnikləri - 45,1% və zootexniklər - 61,8%.[66]

Azərbaycan kəndi üçün kadr hazırlığında partiya-siyasi məktəbləri xüsusi yer tuturdu. Onların qarşısında duran əsas vəzifə kolxoz, sovxoz və MTS-lər üçün siyasi cəhətdən səriştəli rəhbər kadrlar hazırlamaq idi. Həmin kadrlar dövlətin kolxozçular qarşısında qoyduğu bütün tədarük planlarını qısa müddətdə yerinə yetirməsini təmin etməli idilər. Tədqiq olunan dövrdə kəndin kadrlara olan ehtiyacları Bakıdan kommunistlərin, komsomolçuların, fəhlələrin göndərilməsi hesabına da təmin edilirdi.

**"Azərbaycan SSR-də pedaqojı və elmi ziyalı kadrların hazırlanması (XX əsrin 20-30-cu illəri)"** adlı beşinci fəsil iki yarımfəsildən ibarətdir. "**Müəllim kadrların hazırlanması və sosial xüsusiyyətləri"** adlı birinci yarımfəsildə qeyd olunur ki, Azərbaycanda hakimiyyətə gələn bolşeviklərin köhnə təhsil sisteminin islah olunmasına dair hazır planları və yeni sovet məktəbində işləməyə hazır olan ixtisaslı müəllim kadrları yox idi. Buna görə də yeni sovet məktəbi yaradılan və yeni sovet ideyaları təhsilə tədbiq edilən ilk vaxtlarda, qismən olsa da inqilaba qədərki məktəb ənənələrindən və kadrlarından istifadə olunurdu. Nəticədə, 1920-1930-cu illərin təhsil sahəsini sınaq və səhvlərlə dolu müxtəlif təcrübələr və yeniliklər dövrü kimi xarakterizə etmək olar.

Tədqiq olunan dövrdə hakimiyyətin siyasi təsnifatına görə sovet müəllimləri inqlabaqədərki müəllimlərə, sovet dövründə işləməyə başlayan kənd müəllimlərinə və sovet ali məktəblərinin məzunları olan gənc müəllimlərə bölünürdü.[67]

---

[66] Всесоюзная перепись населения 1939 года, с. 201.

[67] Azərbaycan SSR Xalq Maarif Komissarı M.Quliyevin AK(b)P Mərkəzi Komitəsinin katibi L.Mirzəyana məruzəsi. Azərbaycan müəllimlərinin siyasi xüsusiyyətləri (Bakı: 1926) // ARPİİİSSA, Fond № 1, siyahı № 74, iş № 194, vərəqlər 205-209.

Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda pedaqoji kadrların kəskin çatışmazlığı şəraitində Rusiya imperiyası və Azərbaycan Xalq Cümhuriyyəti dövründə ali məktəblərin və seminariyaların məzunları olmuş şəxslərin tədris fəaliyyətinə qayıtmasına xüsusi diqqət yetirilirdi. Bu təbəqə ixtisaslı müəllimlərin əsas hissəsini təşkil edirdi, əsasən şəhərlərdə orta məktəblərdə işləyirdi, ana dili ilə yanaşı, rus dilini də yaxşı bilirdi. Onların arasında AXC dövründə Türkiyədən dəvət olunmuş müəllimlər də vardı. 1920-ci ildə Azərbaycan SSR-də türk müəllimlərinin yalnız 3%-nin ali və orta təhsili vardı.[68] Yeni hakimiyyətin köhnə müəllim kadrlara münasibəti birmənalı deyildi. Hakimiyyət həmin müəllimlərdə "Müsavat ideyalarının" daşıyıcılarını görür, sənədlərdə 2Müsavatçı müəllimlərin" yüksək siyasi fəallığını qeyd edirdi.[69]

Qəzalarda azərbaycanlıların kütləvi savadsızlığı şəraitində müəllimlərin kəskin çatışmazlığı hakimiyyəti ən radikal tədbirlər görməyə məcbur etmişdi. Bu problemi aradan qaldırmaq üçün Azərbaycan SSR-də qısamüddətli müəllim kursları yaradılırdı. Kurs proqramını sürətlə bitirən müəllimlər birpilləli məktəblərə işə qəbul olunurdu.

Eyni zamanda, gənclərin hesabına "yeni müəllim" nəslinin formalaşması prosesi gedirdi. 1920-ci illərdə Azərbaycan SSR-də müəllim kadrlar hazırlayan yalnız bir ali məktəb - 1923-ci ildə kişi və qadın Pedaqoji institutlarının birləşməsi nəticəsində təşkil olunmuş Ali Pedaqoji İnstitut fəaliyyət göstərsə də, gənc nəsildən olan müəllimlər əsasən pedaqoji məktəblərin və qısamüddətli kursların məzunları idi. Hazırlıq şöbələri olmadan institutların tələbə heyətini formalaşdırmaq mümkün deyildi. Bunun əsas səbəbi orta məktəblərdə təhsil səviyyəsinin aşağı olması idi. 1930-cu illərin ikinci yarısında Azərbaycan SSR-də ali pedaqoji təhsil müəssisələrinin şəbəkəsi artmışdı. Bu dövrdə Ali Pedaqoji İnstitut, Azərbaycan Dövlət Universiteti, qiyabi Pedaqoji İnstitut ali təhsilli müəllimlər hazırlayırdılar. Bundan əlavə Bakıda, Kirovabadda (Gəncədə), Naxçıvanda, Nuxada, Şuşada, Xankəndində (DQMV) iki illik

[68] Народное образование в Азербайджане. 1920-1927. Баку: 1928, с. 25.
[69] Рафиев, Б.Дж. Если снять гриф секретности. (Очерки новейшей истории Азербайджана). Глазов: 2008, с. 79-80.

pedaqoji institutlar açılmışdır. İbtidai və orta məktəb müəllimlərinin əsas hissəsi hələ də pedaqoji texnikumlar tərəfindən hazırlanırdı. 1930-cu illərin sonunda onların sayı 25-ə çatmışdı.[70] Nəticədə, 1 yanvar 1939-cu ilə olan məlumata görə respublika məktəblərində işləyən 19 mindən çox müəllimin yalnız 2098-nin ali təhsili vardı.[71] Ali təhsilli müəllimlərin əsas hissəsi Bakıda işləyirdi. Xüsusi çəkisinə görə azərbaycanlılar kənd müəllimlərinin əksər hissəsini təşkil edirdi. 1939-cu ildə keçirilən əhalinin Ümumittifaq siyahıyaalınmasına görə ibtidai, bütün növ orta təhsil müəssisələrinın və kurslarının müəllimləri arasında azərbaycanlılar 12030 nəfər (o cümlədən 1816 qadın) və ya ümumi müəllim heyətinin 57,2% -ni təşkil edirdilər.[72]

**"Elmi ziyalı kadrların formalaşmasının xüsusiyyətləri"** adlı ikinci yarımfəsildə qeyd olunur ki, 1920-ci illərdə ziyalı kadrların hazırlanması bir neçə ali məktəb və pedaqoji texnikumlar hesabına həyata keçirilirdi. Ali təhsilli mütəxəssislərin və ana dilində dərsliklərin çatışmaması, rus dilinin ali təhsil sistemində aparıcı yer tutması kimi amillər milli ziyalıların sayının artmasına mənfi təsir göstərirdi. Bu dövrdə ali təhsil müəssisələrinin akademik heyətinin milli tərkibi əsasən RSFSR-dən dəvət olunmuş mütəxəsislərdən ibarət idi. Həmin kadrlar eyni zamanda Azərbaycanda ilk elmi müəssisələrin yaradılmasında, sosial və təbiət elmləri sahəsi üzrə müxtəlif istiqamətlərin inkişafında fəal iştirak etmişdilər. 1930-cu illərdən başlayaraq ali təhsil müəssisələri şəbəkəsinin genişlənməsi və onların ixtisaslaşması müəyyən sahələrdə tədqiqat institutlarının, Elmlər Akademiyası sistemində və ali məktəblərdə aspirantura institutunun yaradılması milli ziyalı kadrların hazırlanmasında böyük rol oynamışdır. 1939-cu ilə olan məlumata əsasən elmi işçilər, professorlar və ali məktəb müəllimləri arasında azərbaycanlıların xüsusi çəkisi 42,8-i % (766 nəfər, onlardan 95 qadın idi) təşkil edirdi.[73]

---

[70] Нифталиев, И.В. Социальный облик советского учительства в Азербайджанской ССР в 1920-1930-е годы // Материалы IX международной научной конференции «Культура и власть в СССР. 1920-1950-е годы», с. 405.
[71] Мусаева Т. Культура Азербайджана на рубеже эпох, с. 78.
[72] Всесоюзная перепись населения 1939 года, с. 201.
[73] Всесоюзная перепись населения 1939 года, с. 201.

1930-cu illərin siyasi repressiyaları institutların və elmi müəssisələrin akademik heyətinə gənclərin cəlb olunmasında əhəmiyyətli rol oynamışdır.

Dissertasiyanın **nəticə** hissəsində XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-də partiya və dövlət hakimiyyəti orqanlarında, sənaye, kənd təsərrüfatı, elm və təhsil sahəsində kadrların seçilməsi, irəli çəkilməsi və təyin edilməsinə dair sovet milli siyasətinə qiymət verilir.

## Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:


1. Некоторые особенности формирования национального и социального состава руководящих партийных кадров Азербайджанской ССР в 20-30-гг. XX века //-Баку: Азербайджан и азербайджанцы,- 2008. № 5-8,- с.219-228.
2. Компартия Азербайджана: форма организации, структура и параметры выдвижения кадров (20-30-е годы XX века) // - Bakı: Milli Azərbaycan Tarix muzeyi,- 2011,- с.200-210.
3. Становление исторической науки в Азербайджанской республике: проблемы, особенности, разночтения //-Москва: Историческое пространство,- 2011. № 1,- с.22-36.
4. Компартия Азербайджана в годы партийных чисток и «Большого террора» (20-30-е годы XX века) // -Баку: Азербайджан и азербайджанцы,- 2012. № 1-2,- с.137-146.
5. Некоторые особенности политики коренизации кадров в Азербайджанской ССР (20-30-е годы XX века) //- Bakı: Milli Azərbaycan Tarix muzeyi,- 2012,- с.146-163.
6. Партийно-государственная власть в Азербайджанской ССР: структура, форма организации и руководство ( 20-30-е годы XX века) // -Москва: Историческое пространство,- 2012. № 1,- с.219-229.

7. Нариман Нариманов о засилье армянских коммунистов в партийном руководстве Азербайджанской ССР // -Bakı: Milli Azərbaycan Tarix muzeyi,- 2013,- s. 195-213.
8. Кадровые перестановки в партийном руководстве Азербайджанской ССР в 20-30 –гг. XX века ( на примере первых секретарей) //-Баку: Труды Института Истории НАН Азербайджана, -2014. № 51,- с. 58-70.
9. Аппарат управления Центрального и Бакинского Комитета Компартии Азербайджанской ССР в 20-30-е годы XX века. // -Bakı: AMEA Xəbərləri. İctimai seriyası,- 2016. № 1,- с.45-54.
10. Кадровая политика в Азербайджанской ССР в 20-30-е гг. XX века (правовой аспект) // -Ростов-на-Дону: Северо-Кавказский юридический вестник,- 2016. №1,- с.114-126.
11. Социальный фактор в кадровой политике в Азербайджанской ССР (20-30-е годы XX века) // -Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə,-2016. № 2 (54),- с.163-172.
12. Уровень образования и расстановка партийных кадров в различных отраслях хозяйства Азербайджанской ССР в 20-30 гг. XX века // -Bakı: AMEA Xəbərləri. İctimai seriyası,- 2016. № 3,- с.14-19.
13. Национальный состав Коммунистической партии Азербайджанской ССР (20-30-е гг. XX века) // -Баку: Труды Института Истории НАН Азербайджана,- 2016. № 59,- с.60-68.
14. Кадровая политика в нефтяной промышленности Азербайджанской ССР в 20-30-е гг. XX века // -Москва: Современная научная мысль,- 2016. № 4,- с.118-130.
15. Социальный облик советского учительства в Азербайджанской ССР в 1920-1930-е годы // Материалы IX международной конференции «Культура и власть в СССР. 1920-1950-е гг.». Санкт-Петербург, 24-26 октября 2016 г. -Москва:-2017,- с. 399-411.
16. Партийно-политическое образование в Азербайджанской ССР в 20-х -30-х гг. XX века //-Москва: Вопросы истории,- 2016. № 12,- с.143-150

17. Подготовка инженерно-технических кадров для промышленности Азербайджанской ССР в 20-30 –е гг. XX века // -Bakı: Azərbaycan Arxeologiyası və etnoqrafiyası,- 2016. № 2,- с.226-233.
18. XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-nin partiya-dövlət hakimiyyəti strukturlarında kadrların milliləşdirilməsi siyasəti // “100. Yılında Sovyet İhtilali, Gelişimi ve Bölgesel Etkileri” Uluslararası Sempozyumu. Kars, 25-27 Ekim 2017.- Ankara:- 2019,- s.459-475.
19. Первичные партийные организации Компартии Азербайджанской ССР в 20-30-е годы XX века: распределение по видам, состав и функции //-Майкоп: Вестник Майкопского Государственного Технологического университета,- 2017. №2,- с.29-34.
20. Высшие органы государственной власти в Азербайджанской ССР : форма организации, структура и руководство (20-30-е гг. XX века) // -Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə,- 2017. № 2 (58),- с.142-151.
21. Особенности кадровой политики в области подготовки учителей в Азербайджанской ССР в 20-30-е годы XX века //-Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası,- 2017. № 2,- с.102-110.
22. Бакинская партийная организация в 20-30-е гг. XX века: структура, руководство, национальный и социальный состав // -Naxçıvan: Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər seriyası,- 2017. № 3,- с.62-72.
23. Структура и руководство Центрального Комитета Компартии Азербайджанской ССР в 20-30-е гг. XX века // -Bakı: Strateji təhlil,- 2017. № 3-4 (21-22),- с.271-284.
24. Кадровая политика в Азербайджанской ССР в 1920-1930-е гг.: цели, основные направления и формы осуществления /-Баку: Elm və təhsil,- 2018.- 480 с.
25. Создание Закавказской Советской Федерации как составная часть решения национального вопроса на Южном Кавказе // Сборник материалов международного научно-практического семинара. Кавказоведческие чтения. - Нежин:- 2018.- с.19-33.

26. Подготовка кадров для аграрного сектора экономики Азербайджанской ССР (20-30-е годы XX века) //- Баку: Труды Института Истории НАН Азербайджана,- 2018. № 73,- с.224-240.
27. Качественные параметры партийных кадров в Азербайджанской ССР в 1920-1930-е гг. // -Bakı: Strateji təhlil,- 2018. № 3-4 (25-26),- с.271-298.
28. Формирование инженерно-технических и рабочих кадров для промышленности Азербайджанской ССР в 1920-1930-е годы // -Bakı: Milli Azərbaycan Tarix muzeyi,- 2018,- с.169-192.
29. Основные приоритеты при подготовке кадров советской научной интеллигенции в Азербайджанской ССР, их количественная и качественная характеристика (20-30-е годы XX века) //-Баку: Труды Института Истории НАН Азербайджана,- 2019. № 78,- с.26-50.
30. Некоторые особенности советской кадровой политики в Азербайджане в 20-30-е гг. XX века // Материалы международной научно-практической конференции «Кавказоведение в системе общей культуры и образования». Магас, 24-25 сентября 2019 г.- Назрань:-2019,- с.144-154.
31. Национальный вопрос в коммунистической партии Азербайджана (20-30-е гг. XX века) // Материалы V международного конгресса кавказоведов,- Тбилиси:- 4-6 ноября, -2019,- с.217-218.
32. XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-də ali hakimiyyət orqanlarının formalaşmasında kadr siyasəti // «Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar» mövzusunda Respublika elmi konfransının materialları,- Mingəçevir:- 6-9 dekabr,- 2019,- s.94-96.
33. XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-də milli məsələ və partiya-dövlət strukturlarında kadrların milliləşdirilməsi siyasəti : nəzəriyyə, təcrübə, ixtilaflar // -Gəncə: AMEA Gəncə bölməsinin Xəbərlər məcmuəsi. İctimai və humanitar elmlər seriyası,-2022. № 1 (2), - s.48-59.

Dissertasiyanın müdafiəsi 14 октябр 2022-ci il tarixində saat $10^{00}$ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 05 сентябр 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.08.2022

Kağızın formatı: 5A

Həcm: 90815

Tiraj: 30